

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır və qalib gəlir



8

# Mədəniyyətlərarası dialoq platformasından dünyaya mesaj!

SƏS
№ 076 (7001)
2 may 2024-cü il.
Qiyməti 60 qəpik




3

**Prezident İlham Əliyev: "Forum çox mühüm beynəlxalq platformadır və burada mədəniyyətlərarası dialoq məsələləri müzakirə olunur"**

# Ədalətin bərpasına qarşı ƏSASSIZ NARAZILIQLAR




6

## Yayda hansı parça və rənglər tərlətmir?



12

## Azərbaycanda ipoteka ilə bağlı dəyişikliklər təsdiqlənib



16

## Gələn ay ardıcıl 5 gün iş olmayacaq



16

## Əli Kərimli indi də özünü "ictimai vəkil" olaraq təqdim etməyə çalışır



13

## Analar qurban demir



11

# Türkdilli dövlətlər arasında dostluq münasibətləri uğurla inkişaf edir

## Prezident İlham Əliyev TDT-yə üzv və müşahidəçi dövlətlərin dini rəhbərlərindən ibarət nümayəndə heyətini qəbul edib

***Azərbaycan Prezidenti İlham Əliyev mayın 1-də Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi dövlətlərin müsəlman dini rəhbərlərindən ibarət nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinə Özbəkistan Müsəlmanlar İdarəsinin sədri Nuriddin Xaliknazarov, Qazaxıstan Müsəlmanlar İdarəsinin sədri Naurızbay Otpenov, Qırğızıstan Müsəlmanlar İdarəsinin sədri Abdulaziz Zakirov və Şimali Kipr Türk Respublikasının Diyanət İşləri Başkanı Ahmet Unsal daxildir.***

Görüşdə VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətinə toxunuldu, bu tədbirin xalqlar və müxtəlif dinlərin nümayəndələri arasında əlaqələrin möhkəmləndirilməsi işinə böyük töhfə verdiyi bildirildi.

Prezident İlham Əliyev Türkdilli dövlətlər arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini deyərək, eyni zamanda, bu ölkələrin dini liderləri arasında əməkdaşlığın həyata keçirilməsinin önəmini qeyd etdi və vurğuladı ki, bu əməkdaşlıq ölkələrimiz və xalqlarımız arasında əlaqələrin möhkəmlənməsinə öz töhfəsini verir. Dövlətimizin başçısı qonaqların işğaldan azad olunmuş ərazilərimizə səfərinin önəminə toxunaraq bu səfərin orada gedən proseslərlə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacağını bildirdi.

Prezident İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri zamanı Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri zamanı Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışını və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycana dövlət səfəri zamanı Ağdamın Xıdırlı kəndində inşa olunacaq tam orta məktəb binasının təməlinin qoyulmasını dostluq və qardaşlıq əlaqələrimizin təzahürü kimi dəyərləndirdi. Eyni zamanda, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın ölkəmizə rəsmi səfərini məmnunluqla xatırladı.

Özbəkistan Müsəlmanlar İdarəsinin sədri Nuriddin Xaliknazarov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin, Şimali Kipr Türk Respublikasının Diyanət İşləri Başkanı Ahmet Unsal isə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın salamlarını dövlətimizin başçısına çatdırdılar.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə və Ersin Tatara çatdırmağı xahiş etdi.



Azərbaycanda onlara göstərilən qonaqpərvərliyə görə minnətdarlıqlarını bildirən dini liderlər bu Forumun önəmini vurğuladılar, dövlətimizin başçısının Forumda məzmunlu çıxışının onlara dərin təəssürat hissi bağışladığını dedilər. Qonaqlar bu tədbirin türkdilli dövlətlər arasında dostluq və qardaşlıq əlaqələrinə söykənən tarixi, dini, mədəni köklərimizin bir-birinə daha da yaxınlaşmasına xidmət etdiyini vurğuladılar.

Prezident İlham Əliyev işğal dövründə ermənilər tərəfindən tarixi-dini abidələrimizin dağıdıldığını qeyd edərək hazırda həmin ərazilərimizdə aparılan genişmiqyaslı bərpa işləri çərçivəsində yeni məscidlərin inşa edildiyini, dağıdılanların isə bərpa olunduğunu dedi.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda dini azadlıqların təmin olunması, islami dəyərlərin qorunması işinə dövlət səviyyəsində göstərilən qayğıya, həmçinin işğaldan azad edilmiş torpaqlarımızda tarixi-dini abidələrimizin, məscidlərimizin bərpasına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi, bu istiqamətdə Heydər Əliyev Fondunun həyata keçirdiyi işləri xüsusi olaraq qeyd etdi, Fondun dini-mədəni sərvətlərimizin qorunmasında oynadığı rolu vurğuladı.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Azərbaycanda dini dəyərlərin qorunmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətlərini dərin ehtiramla yad etdi.



# Prezident İlham Əliyev BMT Baş katibinin qanunun aliliyi və təhlükəsizlik təsisatları üzrə köməkçisini qəbul edib

***Azərbaycan Prezidenti İlham Əliyev mayın 1-də BMT Baş katibinin Sülhməramlı Əməliyyatlar Departamentində qanunun aliliyi və təhlükəsizlik təsisatları üzrə köməkçisi Aleksandr Zuyevi qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə qlobal səviyyədə çox aktual mövzuların müzakirəsi və qarşılıqlı fikir mübadiləsinin aparılması baxımından Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəmi vurğulandı.***



Bu tədbirdə bir çox ölkədən xeyli sayda nüfuzlu qonağın, eləcə də BMT və digər beynəlxalq təşkilatların, onların müxtəlif qurumlarının nümayəndələrinin iştirak etməsi Foruma dünya səviyyəsində marağın göstəricisi kimi qiymətləndirildi.

Azərbaycan ilə BMT, o cümlədən BMT-nin müxtəlif qurumları arasında səmərəli əməkdaşlığın həyata keçirildiyi məmnunluqla qeyd olundu. Söhbət zamanı COP29-un Azərbaycanda keçirilməsi və bununla bağlı ölkəmizin BMT ilə sıx əməkdaşlıq etdiyi vurğulandı.

# "Bütün dinlərin və xalqların nümayəndələri ölkəmizdə bir ailə kimi yaşayırlar"

## *Prezident İlham Əliyev Rusiyanın Baş ravvinini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Rusiyanın Baş ravvini Berl Lazarı qəbul edib. Görüşdə VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun beynəlxalq əməkdaşlığın genişləndirilməsində əhəmiyyəti vurğulanaraq, bu tədbirin dünya səviyyəsində dinlər və mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi işinə böyük töhfə verəcəyi bildirildi.



Söhbət zamanı Azərbaycanda hökm sürən tolerant mühit barədə danışıldı, bütün dinlərin və xalqların nümayəndələrinin ölkəmizdə dinc şəraitdə bir ailə kimi yaşadıqları məmnunluqla qeyd edildi.

# Mədəniyyətlərarası dialoq platformasından dünyaya mesaj!

## Prezident İlham Əliyev: "Forum çox mühüm beynəlxalq platformadır və burada mədəniyyətlərarası dialoq məsələləri müzakirə olunur"




***Beynəlxalq tədbirlər məkanı olan Azərbaycan növbəti dəfə VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi edərək bir daha öz gücünü, təşkilatçılıq bacarığını ortaya qoymuş oldu. Mədəniyyətlərarası dialoq platformasına çevrilən forum 100-dən çox ölkənin nümayəndəsini bir araya gətirdi. "VI Mədəniyyətlərarası Dialoq Forumunda 100-dən artıq ölkənin nümayəndəsi iştirak edir. Bu, sözün əsl mənasında göstərir ki, Forum çox mühüm beynəlxalq platformadır və burada mədəniyyətlərarası dialoq məsələləri müzakirə olunur". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 1-də Bakıda işə başlayan "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində çıxışında deyib.***

Azərbaycanın əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkan olduğunu bildirən Cənab Prezident bizim coğrafi mövqeyimizin, Şərq ilə Qərb arasında yerləşməyimizin bu tendensiyaya imkan yaratdığını diqqətə çəkib. Dövlətimizin başçısı qeyd edib ki, çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik Azərbaycan cəmiyyəti əsrlər boyu mühüm dəyərləri - tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlığı qoruyub. Tolerant mühitin məkanına çevrilən Odlar diyarımız Azərbaycan sülsevər dövlət olaraq özünəməxsus xoşməramlı mesajlarını dünya ölkələrinə göndərir. Bu mesajlarda dinlərin və etnik qrupların nümayəndələrinin birgə yaşaması və ölkəmizin uğurlu inkişafına birgə töhfələr verən mövcud mühit öz əksini tapır. Azərbaycandakı birgəyaşayış mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycanda tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun olaraq möhkəmlənib, dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Odlar diyarının "tolerant ölkədən tolerant dünyaya doğru" şüarını reallaşdırılmasını özünün hədəfi kimi müəyyənləşdirməsi də əbəs deyil. Azərbaycanda islam dini ilə yanaşı, xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır.

### "AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ SÜLHÜN, SABİTLİYİN, HƏMRƏYLİYİN AMİLLƏRİNDƏN BİRİ MƏHZ MƏDƏNİ MÜXTƏLİFLİK VƏ QARŞILIQLI HÖRMƏTLƏ BAĞLIDIR"

Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində ölkəmizdə ictimai-siyasi sabitlik, milli-mənəvi birlik, tolerant mühit formalaşıb. Bütün dinlərə hörmətlə yanaşaraq müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət göstərilir, o cümlədən dini ocaqlara məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. "Azərbaycanda müxtəlif etnik qrupların və dinlərin təmsilçiləri bir ailə kimi yaşayır. Onlar Azərbaycanın dəyərli vətəndaşları, bizim dövlətimizin, dövlətçiliyimizin əsl vətənpərvər insanlarıdır", - deyə Cənab Prezident bildirib: "Biz bu müsbət tendensiyaları, mədəni dialoqu və mədəni müxtəlifliyi gücləndirməliyik. Bütün bunlar əsrlərdən gələn nemətdir".








Azərbaycanda bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra etməkdədirlər. Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkəyə çevrilib.

*Ardı Səh. 4*

# Mədəniyyətlərarası dialoq platformasından dünyaya mesaj!

## Prezident İlham Əliyev: "Forum çox mühüm beynəlxalq platformadır və burada mədəniyyətlərarası dialoq məsələləri müzakirə olunur"

Əvvəli Səh. 3

Azərbaycan dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin qurulmasında artıq nümunəvi ölkə kimi tanınır. "Azərbaycan cəmiyyətində sülhün, sabitliyin, həmrəyliyin amillərindən biri məhz mədəni müxtəliflik və qarşılıqlı hörmətlə bağlıdır", - deyə Prezident diqqətə çəkib ki, Azərbaycan daxilində mədəniyyətlərarası dialoq hər zaman müsbət olub. Prezident qeyd edib ki, multikulturalizm Azərbaycan vətəndaşları üçün hər hansı abstrakt məfhum deyil, həyat tərzidir. Azərbaycanda bütün dinlərin tarixi-dini abidələri qorunur, bərpa edilir, tikilir. Ölkəmizdə abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzi, Katolik məbədi, İmamzadə kompleksi, möhtəşəm Heydər Məscidi Azərbaycanda olan mühitin təzahürüdür. Bütün bunlarla yanaşı, Rus Pravoslav Baş Kafedral Kilsəsi, "Xilaskar" Yevangelik-lüteran kilsəsi, Gəncədəki Aleksandr Nevski Rus Pravoslav Kilsəsi dövlət tərəfindən təmir olunub, Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa edilib.

Ölkəmizdə olan çoxsaylı xristian icması cəmiyyətimizin ayrılmaz və fəal hissəsidir, onların abidələri və ibadət yerləri, kilsələr Azərbaycan dövləti tərəfindən tam mühafizə edilir və mütəmadi olaraq bərpa edilir.



### "QOŞULMAMA HƏRƏKATININ TƏSİSATLANMASI GƏLƏCƏKDƏ DƏ DAVAM EDƏCƏK"

"Biz çoxtərəfliliyə qəti şəkildə sadiqik. Biz çoxtərəflilik dəyərlərini 2019-cu ildən bu ilin əvvəlinə qədər Qoşulmama Hərəkatında təşviq etmişik", - deyən Prezident Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə onun təsisatlanması istiqamətində mühüm addımlar atdığını vurğulayıb.

Azərbaycanın BMT-dən sonra ikinci böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına sədrliyi kifayət qədər uğurlu və əksər üzv dövlətlər tərəfindən nümunəvi sədrlik olaraq təqdir edilməkdədir. Sədrlik dövründə Azərbaycan Respublikası Hərəkatın beynəlxalq münasibətlər sistemindəki əvvəlki nüfuzunu bərpa etməyə yönəlmiş və heç bir beynəlxalq aktorla ziddiyyətə getmədən "Bandunq Prinsipləri"nin təşviqinə köklənmiş siyasət sərgiləyib. Sədrliyin böyük bir hissəsinin COVID-19 pandemiyasının yayılmasının intensiv dövrünə təsadüf etməsinə baxmayaraq, Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin Qoşulmama Hərəkatının sədri qismində irəli sürdüyü qlobal əhəmiyyətli təşəbbüslər sayəsində mövcud çağırışlar yeni əməkdaşlıq imkanlarına çevrilib. Azərbaycan, həmçinin Hərəkatın təsisatlandırılması istiqamətində mühüm addımlar atıb. Dövlətimizin başçısı ölkəmizin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin, Gənclər Təşkilatının və Qadınlar Platformasının yaradıldığını xatırladaraq bildirib: "Əminəm ki, Qoşulmama Hərəkatının təsisatlanması gələcəkdə də davam edəcək".

Sülhə nail olmaq imkanlarına maneə törədən qeyri-sabit dövlətlər Azərbaycandakı əmin-amanlıqdan, tolerantlıq ənənələrini görürlər. Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Forumu, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu və onlarla belə tədbirləri keçirməklə, dünyanın diqqətini özünü cəlb edən Azərbaycan bu və ya digər tədbirlərlə xalqlar və dövlətlər arasında əməkdaşlığa xidmət edir. Sülh içində yaşayan plüralist və demokratik cəmiyyətlər qurmaq üçün dağıdıcı cərəyanlara qarşı birlikdə mübarizə aparmağın vacibliyi əsas məsələ kimi bu və ya digər məsələr müzakirə olunur.



### "DÜNYA İYRƏNC NEOKOLONİALİZM PRAKTİKASINA GÖZ YUMMALI DEYİL"

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məlum sərəncamları ilə ölkəmizdə 2016-cı ilin "Multikulturalizm ili", 2017-ci ilin isə "İslam Həmrəyliyi ili" elan edilməsi bəşəri dəyərlərə olan ali münasbətin daha bir təzahürü idi. Dünya ictimaiyyəti Azərbaycanın nümunəvi tolerantlıq modelini, dinlərarası dialoq mədəniyyətini qəbul edir və öyrənir. Təbii ki, hər hansı bir cəmiyyətdə sosial tolerantlığın bərqərar olmasında və multikultural dəyərlərin tərəqqisində siyasi hakimiyyətin iradəsi əvəzsizdir.

Ölkəmiz sülh və əmin-amanlıq şəraitində yaşayır. Belə bir ölkə tolerant dövlət kimi də tanınır. "Dünya iyrənc neokolonializm praktikasına göz yummalı deyil. Bu, assimilyasiyaya, məcburi assimilyasiyaya aparır. Bu, Fransanın 10-dan artıq dənizaşırı ərazisində baş verir. Buna son qoyulmalıdır", - deyə dövlətimizin başçısı bildirib.

Qlobal sülhün qorunması, dayanıqlı inkişaf, ədalətli bölüşmə, regional rifah və inkişafda uçurumun azaldılması önəmli hədəflər sırasında olduğundan Azərbaycan məəhz belə mövzuların müzakirə edilərək, mühüm qərərlar qəbul edilən dövlət kimi yüksək imicə sahibdir. Dünyanın müxtəlif regionlarında sabitliyin pozulduğu, ekstremizmin və terrorçuluğun genişlənməsinin təhlükəli hal aldığı zamanda onların qarşısını almaq üçün siyasi yolların axtarılması və bəşəriyyəti irəliyə doğru aparacaq ideyaların təşviqinin gücləndirilməsi zərurəti yaranıb. Dünyanın müxtəlif yerlərində müxtəlif zəmində toqquşmaların baş verdiyi halda, Azərbaycan sülhün və həmrəyliyin carçısına çevrilib. Mədəniyyətlərarası Forum, məhz belə halların qarşısının alınmasına öz töhfələrini verir.




*Zümrüd BAYRAMOVA*

# “Azərbaycanla İraq arasında əlaqələrin zəngin tarixi var”

## Prezident İlham Əliyev İraq Parlamentinin sədrini qəbul edib

***Prezident İlham Əliyev mayın 1-də İraq Respublikası Parlamentinin sədri Möhsin Əli Əkbər Əl-Mandalavini qəbul edib. Görüşdə VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti vurğulanaraq dünyanın müxtəlif ölkələrindən çox sayda nüfuzlu qonağın iştirak etdiyi bu tədbirin beynəlxalq əməkdaşlıq işinə töhfə verdiyi qeyd olundu.***

Azərbaycanla İraq arasında əlaqələrin zəngin tarixinin olduğunu deyən dövlətimizin başçısı hazırda İraqda sabitliyin, əmin-amanlığın təmin edilməsini müsbət amil kimi qiymətləndirdi. Azərbaycan Prezidenti İraqın zəngin tarixə və mədəniyyətə malik olduğunu vurğulayaraq ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığa toxundu, torpaqlarımız erməni işğalı altında olan dövrdə İraqın hər zaman ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstək göstərdiyini qeyd etdi. İraq Prezidentinin həm rəsmi, həm də Qoşulmama Hərəkatının Zirvə görüşündə iştirak etmək məqsədilə ölkəmizə səfərlərini xatırladan dövlətimizin başçısı bu yaxınlarda Azərbaycanın iki nazirinin rəhbərliyi ilə nümayəndə heyətlərinin İraqa səfər etdiklərini, İraqın Baş naziri tərəfindən qəbul olunduqlarını, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi istiqamətində ətraflı müzakirələrin aparıldığını vurğuladı, hökumətlərarası komissiyanın fəaliyyətinə toxundu.

Prezident İlham Əliyev müdafiə sənayesi, energetika, investisiyalar və digər sahələrdə əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu dedi.

Dövlətimizin başçısı Möhsin Əli Əkbər Əl-Mandalavinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizlə bağlı məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaratdığını qeyd etdi. Qəbula və göstərilən qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirən İraq Parlamentinin sədri VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etməkdən məmnunluqlarını bildirdi.

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində irəliləyişlə bağlı təbriklərini çatdıran İraq Parlamentinin sədri bu proses çərçivəsində dövlətimizin başçısının göstərdiyi səyləri dəstəklədiklərini və tezliklə sülh müqaviləsinin imzalanmasını arzu etdiklərini dedi.

O, Azərbaycanın Qoşulmama Hərəkatındakı uğurlu sədrliyini qeyd edərək, bu Hərəkatın təsisatlanması istiqamətində ölkəmizin verdiyi töhfələri və irəli sürdüyü təşəbbüsləri xüsusi vurğuladı. Möhsin Əli Əkbər Əl-Mandalavi iki ölkənin parlamentləri arasındakı əlaqələrə toxunaraq dedi ki, İraq Parlamenti Azərbaycanla əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsini dəstəkləyir.

İraqda genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını bildirən Parlamentin sədri Azərbaycan şirkətlərini bu prosesə töhfə verməyə dəvət etdi. Möhsin Əli Əkbər Əl-Mandalavi Prezident İlham Əliyevi tezliklə İraqda görməkdən məmnun olacaqlarını dedi. Dövlətimizin başçısı İraqa məmnuniyyətlə səfər edəcəyini bildirdi.

İraq Parlamentinin sədri COP29-un



Azərbaycanda keçirilməsi münasibətilə də təbriklərini çatdırdı, Bakı şəhərinin memarlığının onları heyran etdiyini dedi.

Xoş sözlərə və təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd etdi ki, Bakı şəhərinin memarlıq nümunələrindən olan və dünya miqyasında şöhrət qazanmış Heydər Əliyev Mərkəzinin memarı məhz İraq xalqının yetirməsi Zaha Hadiddir. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev KAICIID-in Baş katibini qəbul edib

Prezident İlham Əliyev mayın 1-də Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) Baş katibi Zuhair Əlhartini qəbul edib. Görüşdə dövlətimizin başçısı VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda 110-dan çox ölkənin nümayəndələrinin iştirakını və bu tədbirin dünyada sülh gündəliyinin irəlilədilməsinə, dialoqa və körpülərin qurulmasına xidmət etdiyini diqqətə çatdırdı. COVID-lə əlaqədar Forumun təşkilində müəyyən fasilələrin yarandığını deyən Prezident İlham Əliyev artıq onun fəaliyyətinin tam şəkildə bərpa olunduğunu və davamlı şəkildə keçiriləcəyini qeyd etdi.

KAICIID-in Baş katibi bu Forumun yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əli-



yevə təşəkkürünü bildirdi və dövlətimizin başçısının tədbirin açılışındakı nitqində dünyaya çox vacib mesajlar verdiyini vurğuladı. O, Azərbaycanın müxtəlif dinlər arasında daim bir harmoniya mərkəzi olduğunu dedi, ölkəmizdəki tərəf müqabilləri ilə yaxından əməkdaşlıq etdiyini bildirdi.

KAICIID tərəfindən həyata keçirilən layihələr barədə məlumat verən Baş katib bundan sonra da Azərbaycanla birlikdə müxtəlif layihələrin reallaşdırılması üçün yaxından işləyəcəklərini diqqətə çatdırdı. O, həmçinin qeyd etdi ki, bu Forum çərçivəsində gündəlikdə duran məsələlər KAICIID tərəfindən də yaxından dəstəklənir. Dövlətimizin başçısı Azərbaycanın multilateralizmə - çoxtərəfli diplomatiyaya mühüm əhəmiyyət verdiyini bildirdi, ölkəmizin Qoşulmama Hərəkatındakı sədrliyini qeyd etdi. Prezident İlham Əliyev COVID dövründə Azərbaycanın 80-dən çox ölkəyə dəstək göstərdiyini dedi. Söhbət zamanı KAICIID-lə Azərbaycanın təsisatları arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.



# Prezident İlham Əliyev Rusiyanın Şimali Qafqaz regionunun müftilərindən ibarət nümayəndə heyətini qəbul edib



Azərbaycan Prezidenti İlham Əliyev mayın 1-də Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Berdiyevin başçılıq etdiyi Rusiya Federasiyası Şimali Qafqaz regionunun müftilərindən ibarət nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinə Çeçenistan Respublikasının müftisi Salah Mejiyev, Stavropol diyarının müftisi Muxamed Raximov, Kabardin-Balkar Respublikasının müftisi Həzrətəli Dzasejev, Şimali Osetiya - Alaniya Respublikasının müftisi Hacımurad Qatsalov, Adigey Respublikasının müftisi Askarbiy Kardanov, Kalmıkiya Respublikasının müftisi Soltanəhməd Karolayev, Şimali Qafqaz İslam Universitetinin rektoru Şarabuddin Çoçayev və Qafqaz Müsəlmanları İdarəsinin Dağıstan Respublikası üzrə nümayəndəsi Şahabiddin Kərimov daxildir.

Söhbət zamanı VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəminə toxunularaq, müxtəlif mədəniyyətlər və dinlərarası əlaqələrin qurulmasında bu tədbirin rolu qeyd edildi. Görüşdə Azərbaycanın Rusiyanın müxtəlif regionları, o cümlədən ölkəmizin tarixi, mədəni köklərlə bağlı olduğu Şimali Qafqaz regionu ilə əlaqələrinin ümumilikdə Azərbaycan-Rusiya ikitərəfli dostluq münasibətlərinin inkişafına töhfə verdiyi vurğulandı. Dövlətimizin başçısının Rusiya Federasiyası Şimali Qafqaz regionunun müftilərindən ibarət nümayəndə heyəti ilə əvvəlki görüşləri məmnunluqla xatırlandı.

Qeyd olundu ki, Azərbaycanın və Rusiyanın Şimali Qafqaz regionunun dini liderlərinin əlaqələri xalqlarımız arasında münasibətlərimizin möhkəmləndirilməsi işinə xidmət edir. Sonda xatirə şəkli çəkdirildi.

# “Heydər Əliyev ideyaları Azərbaycanın mənəvi-siyasi sərvətidir”

## YAP Veteranlar Şurasının və Bakı Biznes Universitetinin birgə təşkilatçılığı ilə tədbir keçirilib






***Mayın 1-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və Bakı Biznes Universitetinin birgə təşkilatçılığı ilə ”Heydər Əliyev ideyaları Azərbaycanın mənəvi-siyasi sərvətidir” mövzusunda tədbir keçirilib. Əvvəlcə Bakı Biznes Universitetində Ümummilli Lider Heydər Əliyevin büstü və Vətən müharibəsi iştirakçılarının xatirəsinə həsr edilmiş guşənin önünə gül dəstələri düzülüb.***

Tədbirdə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan Bakı Biznes Universitetinin rektoru, iqtisadi elmləri doktoru İbad Abbasov Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan tarixində müstəsna yeri və rolundan bəhs edib. O bildirib ki, Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə - həm sovetlər dönəmində, həm də müstəqillik illərində milli inkişaf istiqamətində mühüm tədbirlər həyata keçirilib.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə çıxışında qeyd edib ki, Heydər Əliyev ideyaları əbədiyaşardır. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi tariximizə qızıl hərflərlə yazılıb. Onun sözlərinə görə, Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsi, çiçəklənmə, milli oyanış dövrü oldu: ”Ulu Öndər uzaqgörən insan idi. O, sovetlər dönəmində Azərbaycanı müstəqilliyə hazırlayırdı. C.Naxçıvanski adına Hərbi Məktəbin yaradılması nəticəsində milli hərbçi kadrlarımız yetişdirildi. O dövrdə minlərlə gəncimiz keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərildi və onlar peşəkar mütəxəssislər kimi respublikamızın inkişafına öz töhfələrini verdilər”.

Arif Rəhimzadə qeyd edib ki, 1992-ci ildə Yeni Azərbaycan Partiyasını yaradan Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyununda hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmizi məhv olmaq təhlükəsindən qurtararaq inkişaf yoluna çıxardı: ”Bu gün Prezident İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirir. Prezidentimizin qətiyyətli siyasəti nəticəsində torpaqlarımız işğaldan azad edilib. Biz xalq olaraq dövlətimizlə qürur duyuruq”.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru Dilarə Seyidzadə Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlər göstərdiyini bildirib: ”Azərbaycan xalqı çox xoşbəxtdir ki, onun Heydər Əliyev kimi dahi Lideri olub. Biz müstəqil ölkənin vətəndaşı olaraq çox çətin yollardan keçmişik. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı həm yaradan, həm möhkəmləndirən, dünyada tanıdan, həm də gələcəyə doğru uğurla aparan şəxsiyyət idi. O, özündə bütün keyfiyyətləri birləşdirmişdi. Heydər Əliyevin hələ sovet Azərbaycanında gördüyü işlər respublikamızın gələcək müstəqilliyinə hesablanmışdı”.

1994-cü ildən Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında çalışdığını deyən Dilarə Seyidzadə bu dahi insan haqqında xatirələrini bölüşüb. O qeyd edib ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev çətin anlarda xalqına dayaq oldu. O, bütün ömrünü Azərbaycana, Azərbaycan xalqına həsr edib. Ulu Öndərin torpaq, Vətən sevgisi çox böyük idi. ”Heydər Əliyevin gücü onun biliyində idi”,-deyən YAP Veteranlar Şurasının üzvünün fikrincə, bütün bunlar gənc nəsil üçün həm dövlətçilik ənənələrini dərk etmək, həm də üzərlərinə düşən məsuliyyəti anlamaq baxımından bir nümunədir. ”Heydər Əliyev xalqını, dövlətini elə böyük məhəbbətlə sevirdi ki, Azərbaycana İlham Əliyev kimi güclü, xalqını sevən Lider bəxş etdi. Heydər Əliyev ona özü qədər inanırdı. Prezident İlham Əliyev torpaqlarımızı işğaldan azad edən güclü Liderdir. Cənab İlham Əliyevin həyata keçirdiyi siyasətə hansı töhfəni verə bilərik, bu barədə hər kəs düşünməlidir”,- deyə Dilarə Seyidzadə vurğulayıb. Gənclərə Azərbaycan tarixini, Heydər Əliyevin zəngin irsini dərindən öyrənməyi tövsiyə edən Dilarə Seyidzadə bildirib ki, hər kəs öz fəaliyyəti ilə müstəqil ölkəmizin inkişafına töhfələrini verməlidir.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında tarixi xidmətlərindən bəhs edib. O qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan qüdrətli və qalib ölkəyə çevrilib. Daha sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

# Ədalətin bərpasına qarşı ƏSASSIZ NARAZILIQLAR




Ermənistanda indi kəndlərin öz sahiblərinə, azərbaycanlılara qaytarılmasına, ərazilərin Azərbaycana təhvil verilməsinə görə hay-küy qoparan haylar vəziyyəti dəyişmək istəsələr də buna nail olmaları mümkünsüzdür. Əvvəla ona görə ki, qanunla, qayda ilə kəndlər Azərbaycana məxsusdur və həmin kəndlər də məhz Azərbaycana qaytarılacaqdır, hansıki bunun başqa variantını ermənilər heç ağıllarının ucundan da keçirməsinlər. Digər tərəfdən də artıq bununla bağlı danışıqlar, razılaşmalar olub və bundan sonra hay həyasızlığının heç bir mənası yoxdur.

### Bilməyənlər, başa düşməyənlər, dərk etməyənlər indi də olsa reallıqları anlamalıdırlar

Bildiyimiz kimi, Azərbaycana təhvil verilməli kəndlərin yollarını bağlayan ermənilər, daha doğrusu, məsələni qızışdırmağa çalışan erməni ara qızışdıranları bununla narazılıqlarını ifadə etdiklərini düşünürdülər. Amma yaxşı bilirdilər və yenə də çox yaxşı başa düşürlər ki, bununla nəyə isə nail olmaları qətiyyən ağıla gələn deyil. Bir neçə gün yolu kəsib hay-küy salan hayların indi də erməni baş nazir Nikol Paşinyanla görüşmək niyyəti və görüşü də təbii ki, bu baxımdan səbəbsiz deyil və yolu kəsməklə nəyə isə nail olmayacaqlarını başa düşmələrindən irəli gəlir. Məsələ burasındadır ki, erməni baş nazirlə görüşdən sonra onların simalarındakı ümidsizlik, bədbinlik, yorğunluq və narahatlıq onu deməyə əsas verir ki, görüşdən onlar qətiyyən razı qalmayıblar və istədiklərinin alınmayacağını birmənalı şəkildə dərk də ediblər, qəbul da. İndi onlardan soruşmaq ayıb olmasın, axı niyə də kəndlərimizin bizə qaytarılmasını, təhvil verilməsini dərk və qəbul etməməli idilər axı?

### Haylar Azərbaycana məxsus olan kəndləri, evləri, torpaqları qaytarmalıdırlar, çünki bu, haqqın, ədalətin bərpası deməkdir və belə də olmalıdır

Haylar bilməlidirlər ki, indi bax elə bu delimitasiya məsələlərində, əraziləri qaytarmaq, təhvil vermək məsələsində onların istədiklərini onlara vermək mümkün deyil. Heç həmin kəndlərin sakinlərinə də kəndi bağışlamaq olmaz, çünki torpaqdan pay vermək kimi bir ixtiyar heç kimdə yoxdur. Bəli, başa düşüləndir ki, öz evlərini, 30 ilə yaxın yaşadıqları yerləri tək etmək haylara ağır gəlir. Həm ağır, çətin gəlir, həm də utancverici hesab olunur. Bunu başa düşmək çətin deyil. Çünki ötən əsrin sonlarında, 20 əsrin 90-cı illərində həmin kəndin sakinlərinin öz evlərini ermənilər tərəfindən məcbur edilərək tərk etdikləri zaman hansı şəkildə ağrılı, acılı günlər yaşadığını biz daha yaxşı bilirik. Soruşmaq ayıb olmasın, cəmi 30 il yaşadıqları əraziləri tərk etdikləri zaman ağrını, acını hiss edənlər məhz azərbaycanlıların öz dədə-baba yurdlarını tərk etmələrindən necə acı çəkdiyini heçmi təsəvvürlərinə də gətirmirdilər? Başqasına məxsus evdə 30 il məskunlaşanlar həmin evləri tərk etdikləri zaman bu onlar üçün ağrılı, acılı ola bilir, amma dişi ilə, dırnağı ilə özünə öz yurdunda, ata-baba torpaqlarında, vətənində ev, ocaq quranlar bu ocaqlarını qoyub gedəndə ağrılı, acılı olmurdumu? Cəmi 30 ilə yaxın yaşadıqları, məskunlaşdıqları, indi də başqasının evlərini tərk edənlər acı çəkdiklərini dilə gətirirlərsə, bilməlidirlər ki, öz evlərini tərk edənlər daha çox acı çəkiblər və indi həmin acıları unutmağın, öz yurd-yuvalarına, öz dədə-baba torpaqlarına qayıtmalarının vaxtıdır və bunun üçün də haylar həmin kəndləri də, evləri də, hətta üzərində yeridikləri torpaqları da qaytarmalıdırlar. Bundan razı qalsalar da, qalmasalar da belə olmalıdır, çünki bu, ədalətin bərpası deməkdir.

### Aranı qızışdırmaq istəyən qüvvələr vəziyyətdən sui-istifadə etməyə çalışırlar

Yaxşı başa düşürük ki, haylar işğal və zəbt etdikləri, müvəqqəti şəkildə məskunlaşdıqları ərazilərimizi tərk etdiklərinə görə heç də rahat deyillər. Hətta, Ermənistanda bununla bağlı narazıların sayının hələ bundan sonra daha da artacağı da gözlənilləndir. Bu məsələ ilə bağlı erməni lobbisinin də, xaricdə yaşayan diasporlarının da hay-küy salacaqları da bəllidir. Fransa kimi ermənipərəstliyi ilə seçilən ölkələrdə də bununla bağlı hansısa narazılıqlar müşahidə edilə bilər. İndi belə bir məqamda Qarabağ klanına da Ermənistan hakimiyyəti əleyhinə fəaliyyət göstərməsi üçün şans yarandığını da nəzərə almaq lazımdır. Nəzərə almaq lazımdır ki, koçaryanlar, sarkisyanlar ərazilərimizin, kəndlərimizin bizə, Azərbaycana qaytarılmasına görə də bir bəhanə tapıb Paşinyan hakimiyyətinə qarşı çıxa və bu məqamı bir fürsət hesab edə bilər. Həmin kənlərin əhalisinin də, gənclərin də etiraz aksiyalarına cəlb edilməsi, qızışdırılması bu baxımdan tamamilə başadüşüləndir. Məqsəd birdir və indi aranı qızışdırmaq istəyən qüvvələr vəziyyətdən sui istifadə etməyə çalışırlar.

### Delimitasiyaya, razılaşmalara qeyri-ciddi deyil, ciddi şəkildə, reallıqları qəbul edərək yanaşılsa, haylar üçün daha yaxşı olar

”Hər şeydən əl çəkək, dinc yaşayaq”, ”Sus, qoy hər şeyi təhvil versin”, ”qarışma, qoy təhvil versin”, ”Təhvil verək, sülh içində yaşayaq”, şuarları olan plakatların İrəvan küçələrində yerləşdirilən şəkilləri ”Vətən naminə Tavuş” Facebook səhifəsində paylaşılıb. Bu plakatlarda yazılan şuarların əlbəttə ki, xüsusi istehza olduğu bəllidir.

Bununla, bu istehzalı şuarlarla erməni baş nazirə də, həmin ölkənin müxalifətinə də, yerli sakinlərə, Ermənistan ictimaiyyətinə də bir ehyam vurulması nəzərdə tutulub. Məsələ burasındadır ki, əslində, bu şuarlar haylar tərəfindən heç də istehza, ironiya və yaxud sarkazm kimi qəbul edilməməlidir. Çünki həmin şuarlar əslində reallığı əks etdirirlər. Həmin şuarlar tamamilə düzgün ifadə olunmuş şuarlardırlar. Elə erməni cəmiyyəti, Ermənistan ictimaiyyəti, həmin ölkə hakimiyyəti məhz həmin şuarlar əsasında hərəkət etmiş olsalar, həqiqətən də sülh şəraitində, dinc, firavan həyat qazana bilərlər və bundan sonra da həmin ölkə inkişaf da edə bilər. Yəni, məsələyə istehza, ironiya, sarkazm kimi yanaşılmasa və delimitasiya məsələlərinə, razılaşmalara ciddi şəkildə, reallıqları qəbul edərək yanaşılsa, ən tez zamanda hayların problem hesab etdikləri məsələlər öz qaydasına düşməyə başlayar. Amma görənən odur ki, ara qızışdırmaq istəyən qüvvələr hayların bir çox məsələlərə qeyri-ciddi yanaşması üçün çalışır. Görünən odur ki, ən azından suveren bir ölkənin legitim hakimiyyətinin qərarlarına, imzaladığı razılaşmalara haylar tərəfindən qeyri-ciddi yanaşmanın sərgilən dirilməsi üçün əllərindən gələni etməyə çalışanlar var və onlar bütövlükdə erməni cəmiyyətini yenə də məhvə sürükləyirlər. İtaətsizliyin erməni cəmiyyətində daha da ciddi şəkildə təzahürü üçün çalışanların olduğu göz önündədir, amma onlar başa düşmürlər ki, aprelin 19-da Ermənistanla Azərbaycan arasında sərhədin demarkasiyası üzrə komissiya artıq Qazax istiqamətindən sərhədin demarkasiyasına başlamağa razılaşıb. Sərhəd xəttinin bu hissələrinin təsviri yerində aparılan geodeziya ölçmələri nəticəsində alınacaq koordinatların dəqiqləşdirilməsi nəzərə alınmaqla tərtib ediləcək. Bütün bunlar cari il mayın 15-dək tərəflər arasında razılaşdırılmalı və imzalanmalı olan müvafiq protokol təsvirində sənədləşdiriləcək. Biz komissiyalar arasında anlaşmanın ruhuna və hərfinə riayət olunacağına və razılaşacağına ümid edirik. Əks halda delimitasiya işlərinin necə aparılacağını hayların dərk etdiyini də bilirik. Yəqin ki, ermənilər də bilirlər ki, lazım gəldikdə sürətləndirilmiş temp üslubunda aparılacağı da istisna hal deyil. Bu da haylar üçün heç arzuolunan sayıla bilməz.

***İnam Hacıyev***

# 44 günlük qələbəmizə həsr olunmuş nümunələr yoxdur, varsa da niyə azdır?

***Bu mövzu ətrafında çox düşündüklərimizi hörmətli oxucularla bölüşmək istəyirik. Mövzuya keçməzdən əvvəl bəzi faktları yada salaq. Azərbaycan Respublikasının Qarabağ bölgəsinin 20 faizdən çoxu Sovet ordusu və erməni birləşmələri tərəfindən 28 il bundan əvvəl işğal olunmuşdu. Azərbaycan Ordusu erməni birləşmələrinin Tovuz bölgəsində törətdiyi təxribata cavab olaraq 27 sentyabr 2020-ci il tarixində əks-həmlə əməliyyatına başlayaraq 44 günə, yəni 10 noyabr 2020-ci il tarixə qədər, vətən torpaqlarını işğaldan azad etdi. Müharibədə Azərbaycan Ordusu 3000-ə yaxın şəhid verdi.***

Müharibə Azərbaycan Ordusunun parlaq qələbəsi ilə sona çatdı. Müharibə vaxtı Azərbaycan Ordusundan bircə nəfər belə fərari olmadı. Amma düşmən tərəfin ordusunda fərarilərin sayı-hesabı olmadı.

Ali Baş Komandan cənab İlham Əliyev 44 günlük Vətən müharibəsi haqqında belə deyib: ”Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında bir peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və düşməni torpaqlarımızdan qovduq”.











Görəsən, Azərbaycan Ordusunun parlaq qələbəsi niyə səhnə və ekran əsərlərində yoxdur və ya da kifayət qədər deyil. Bəlkə, Azərbaycan Ordusunun analoqu olmayan qələbəsinin dramaturgiya və ssenari versiyasının yaranması üçün müəyyən zaman lazımdır. Düzdür, Mədəniyyət nazirliyi bu sahədə müəyyən işlər görür. Amma hələki teatr səhnələrində və kino ekranlarında istənilən nəticəni görmürük.

Tarixə müraciət etsək görərik ki, vaxtı ilə 1941-1945-ci illər Böyük Vətən Müharibəsi illərində müharibə və vətənpərvərlik mövzusunda sənət nümunələri çox-çox sonralar yaranmışdı. Məsələn, 1942-ci ildə ”Azərbaycanfilm”-də ”Biz Bakını müdafiə edirik” filmi çəkilmişdi. 1958-ci ildə ”Azərbaycanfilm”-də Mehdi Hüseynzadənin qəhrəmanlığına həsr olunmuş ”Uzaq sahillərdə” filmi, 1959-cu ildə ”Onu bağışlamaq olarmı?” və 1961-cu ildə ”Bizim küçə”, 1969-cu ildə ”Şərikli çörək” və ”Bizim Cəbiş müəllim” filmləri çəkilir. SSRİ-də Rusiya kinematoqrafçıları tərəfindən 1964-cü ildə ”Əsgər atası”, sonralar 1971-cü ildə ”Zabitlər”, 1972-ci ildə ”Şəfəqlər burada sakitdir” və sair filmlər çəkilir.

Daha sonralar ”Azərbaycanfilm”də 1974-cü ildə ”Bakıda küləklər əsir”, 1975-ci ildə ”Tütək səsi” və ”Sizi dünyalar qədər sevirdim”, 1989-cu ildə isə, ”Ölsəm bağışla” filmləri çəkilir.

Azərbaycan teatr səhnəsində də müharibə illərində müharibə və vətənpərvərlik mövzusuna həsr olunmuş əsərlər tamaşaya qoyulur. 1941-1942-ci ildə Azərbaycan Dram Teatrında M.Təhmasibin ”Aslan yatağı”, Z. Xəlilin ”İntizar” və ”İntiqam”, 1943-cü ildə R.Rzanın ”Vəfa”, 1944-cü ildə ”Tur qardaşları” və C. Seynin ”Gizli döyüş” (”Təkbətək döyüş”). Z. Xəlilin ”Qatır Məmməd”, S. Vurğunun ”İnsan” və digər əsərlər tamaşaya qoyulur.

Bəs bu gün teatr və kino sahəsində yuxarıda qeyd olunan mövzu ilə bağlı vəziyyət necədir?

Əlbəttə, istənilən səviyyədə deyil. Bir-iki teatrda maraqlı dram əsərləri və ssenarilər müharibə və vətənpərvərlik mövzusunu əhatə etsə də, bu nədənsə kütləvi hal almır. Mədəniyyət nazirliyinin yeni rəhbərliyinin bu məsələni tədricən yoluna qoyacağına inanırıq. Bir, iki və ya bir neçə nümunə ilə bu vəziyyət düzələ bilməz. Azərbaycan Ordusunun 44 günlük müharibədə göstərdiyi qəhrəmanlıq və şücaət daha ətraflı araşdırılmalı və teatr səhnələrinə və kino ekranlarına gətirilməlidir. Ali Baş Komandanın qeyd etdiyi kimi, ”...biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq...”

Artıq Böyük Qələbədən dörd ilə yaxın bir zaman ötüb. Hələ də istənilən nəticə yoxdur. Bəlkə, bu mövzu ilə bağlı Mədəniyyət nazirliyi daha bir neçə müsabiqələr keçirib, yüksək məbləğdə mükafatlar təsis etsə, iş yoluna düşər. Bəlkə, Yazıçılar Birliyi də mövzu ilə bağlı müsabiqələr keçirib, mükafatlar təyin etsin. Beləliklə, yaradıcı təşkilatlar bu işdə Mədəniyyət nazirliyinə hansısa yardımlar edə bilər. Düzdür, heç kəsi zor gücünə buna məcbur etmək olmaz. Amma nəsə etmək, nəyi isə dəyişmək lazımdır. 1941-1945-ci illərin müharibəsindən 20 il, 30 il, 40 il və daha çox il keçəndən sonra bu mövzuda əsərlərin yaranması, bizə elə gəlirdi ki, istənilən nəticəni verə bilməz.

Bəlkə də, kimsə bu mövzuda əsərlərini yazıb, lakin nə teatrlara, nə də kino sahəsinə yol tapa bilmir. Nə bilmək olar? Demək, yuxarıda qeyd etdiyimiz kimi, müvafiq orqanlar, bu işdə Mədəniyyət nazirliyinə yardımçı olmağa çalışmalıdırlar. Başqa cür biz istənilən nəticəni görə bilməyəcəyik. Amma hələ ki, mövcud vəziyyətdə dram teatrlarında, bir neçə nümunəni çıxmaqla, daha çox hallarda, səhnə əsərlərinin təəssüf ki, kompozisiya təqdimatı ilə rastlaşırıq. Mövzuya həsr olunmuş kino nümunələrində isə, daha çox hallarda mövzunun qloballığı və möhtəşəmliyi yoxdur. Saysız-hesabsız qəhrəmanlıq nümunələri ətraflı həllini tapa bilmir. Bəlkə, bu gün ”Bizim Cəbiş müəllim” kimi müəllimimiz olmayıb və ya Mehdi Hüseynzadə kimi qəhrəmanımız olmayıb. Əlbəttə olub, mütləq olub. Olmasaydı, canını vətən uğrunda qurban verən 3000-ə qədər şəhidimiz olmazdı. Olmasaydı, yüzlərlə, minlərlə igid qazilərimiz olmazdı. Olmasaydı, əlbəyaxa döyüş və yüngül silahlarla həsrətində olduğumuz Qarabağın incisi Şuşa geri alınmazdı. Olmasaydı, adını tarixə qızıl hərflərlə yazan igidlərimiz olmazdı. Olmasaydı, 30 ilə yaxın işğalda olan Vətən torpaqları işğaldan azad olunmazdı. Olmasaydı Qəhrəman Ordumuz, başda Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyev olmaqla vətənin 20 faizə yaxın torpaqları düşməndən geri alınmazdı. Bircə güllə atılmadan neçə-neçə bölgəmizin, o cümlədən son olaraq Qazaxın dörd kəndinin geri qaytarılması, daha nələr və nələr... Buna görə Qəhrəman Ordumuza və canlarını Vətənə fəda etmiş şəhidlərimizə borcluyuq. Bu yerdə Böyük Türk şairi və yazıçısı Nithat Camal Kuntayın məşhur beyti yada düşür:

... Bayraqları bayraq edən üstündəki qandır,

Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir...

***Çingiz ƏLƏSGƏRLI***

# Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır və qalib gəlir



***Müasir, müstəqil azərbaycanın qurucusu və memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101 illiyi və Ulu Öndər Heydər Əliyev ideyalarını yaşadan, böyük şəxsiyyətin adını daşıdığı Heydər Əliyev Fondunun yaradılmasının 20 ili tamam olur.***

Ümummilli Lider Heydər Əliyev gərgin və yorulmaz fəaliyyəti ilə Azərbaycanı qısa müddətdə dinamik inkişaf yoluna çıxardı. Ulu Öndər müasir-müstəqil Azərbaycanın parlaq gələcəyinin koordinatlarını, milli həmrəyliyin, müstəqilliyin qorunmasını, dövlətçilik ənənələrini, onun gələcək inkişafının təmin olunması yollarını, strategiyasını müəyyəndəşdirdi. Ulu Öndərin tarixi xidmətlərini hər zaman böyük minnətdarlıqla xatırlayan xalqımız Heydər Əliyev ideyalarını ölkəmizin gələcək inkişafının təminatçısı kimi qəbul edir və Ümummilli Liderin müəyyənləşdirdiyi yolu daima dəstəkləyir. Ona görə də dahi şəxsiyyət Heydər Əliyevin ideyaları, fəlsəfəsi, ictimai və siyasi fəaliyyətinin hər dövrü araşdırılmalı və gələcək nəsillərə təqdim olunmalıdır.

20 il öncə Heydər Əliyev Fondu müstəqil dövlətimizin qurucusu Ümummilli lider Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, Onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılıb.

”...Fond Heydər Əliyevin siyasi irsini öyrənəcək, onu təhlil, tədqiq və təbliğ edəcəkdir. Fondun qarşısında böyük vəzifələr durur. Fond ictimai təşkilatdır. Ümid edirəm ki, Azərbaycanın ictimai həyatında Fondun rolu böyük olacaqdır”. Bu fikirləri cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2004-cü ildə Heydər Əliyev Fondunun açılış mərasimindəki nitqində bildirib. Dövlətimizin başçısının qeyd etdiyi bu fikirlər ötən 20 il ərzində Heydər Əliyev Fondunun fəaliyyətində öz əksini tapmışdır.





Ümummilli Liderin qurub-yaratdığı müstəqil Azərbaycanın daha da çiçəklənməsində yaxından iştirak etmək, insanlara daim kömək əli uzatmaq, xeyirxah işlər görmək Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinin əsas qayəsini təşkil edir.

2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fond ötən müddət ərzində ölkə həyatının bütün sahələrində irimiqyaslı layihələr həyata keçirmiş, insanlara ehtiyacı olanlara kömək əlini uzadaraq, onlara sevinc bəxş etmişdir. Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyeva bu gün Azərbaycanla yanaşı, ölkə hüdudlarından çox-çox uzaqlarda insanların böyük sevgisini qazanıb.

Heydər Əliyev Fondu Ümummilli Liderin ölkəmizin sosial-iqtisadi, mədəni tərəqqisi, xalqımızın maddi rifahının yaxşılaşdırılması, sağlam, təhsilli Azərbaycan cəmiyyətinin formalaşması naminə müəyyən etdiyi ideyaların reallaşmasına hər zaman böyük dəstək verirmişdir. Son 20 ildə təhsil, səhiyyə, mədəniyyət, idman sahələrində, xalqımızın mənəvi irsinin qorunması və təbliği, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində ölkəmizin ədalətli mövqeyinin dünya birliyinə düzgün şəkildə çatdırılması işində və digər istiqamətlərdə Heydər Əliyev Fondu çoxşaxəli fəaliyyət həyata keçirərək mühüm layihələrə imza atmışdır.

Ulu Öndər hər zaman gənclərə xüsusi diqqət və qayğı göstərir, onların müstəqil Azərbaycanın gələcəyinin təmin olunmasındakı roluna diqqət çəkərək deyirdi: ”Gənclərimizə arzu edirəm ki, onlar həmişə sağlam olsunlar, yaxşı təhsil alsınlar, yaxşı tərbiyə alsınlar, cəmiyyətdə öz yerlərini tuta bilsinlər, cəmiyyət üçün faydalı ola bilsinlər, bizim milli ənənələrimizi həmişə yaşatsınlar, valideynlərinə sadiq olsunlar, həmişə valideynlərinə hörmət etsinlər, məktəbdə, ictimai yerlərdə yüksək mədəniyyət nümayiş etdirsinlər”.

Ölkəmizin müasir təhsil sisteminin qurulması, gənclərimizin yüksək şəraitə malik təhsil ocaqlarında oxumaları Ümummilli Liderin ideyalarının tərkib hissəsi idi. Bu gün Azərbaycanın hər bir bölgəsində təhsil müəssisələri əsaslı şəkildə bərpa edilir və ya yenidən inşa edilir. Prezident İlham Əliyevin tapşırığı ilə ölkəmizin təhsil sisteminin müasirləşdirilməsi, gənclərin daha keyfiyyətli təhsil almaları istiqamətində görülən bütün işlərə Heydər Əliyev Fondu da öz dəstəyini verir. Belə ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın və Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr bu istiqamətdə əldə olunan uğurlara ciddi töhfələr verir.




***İsmayıl İbrahimov,***
***Yeni Azərbaycan Partiyası***
***Hacıqabul rayon təşkilatının sədri***

Fondun reallaşdırdığı ”Uşaq evləri və internat məktəblərinin inkişafı”, ”Yeniləşən Azərbaycana yeni məktəb”, ”Təhsilə dəstək”, ”Məktəbəqədər təhsil müəssisələrinin inkişafı” və digər bu kimi proqramlar çərçivəsində Azərbaycanda, həmçinin ölkə hüdudlarından kənarda təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə görülən işlərin miqyasına nəzər salaq görərik ki, 2005-ci ildən icrasına başlanılan ”Yeniləşən Azərbaycana yeni məktəb” proqramı çərçivəsində 100 mindən artıq şagirdin təhsil aldığı 500-dən çox məktəb binası inşa olunub və yenidən qurulub. Bu məktəblərin hər birində müasir laboratoriyalar, kitabxanalar, yeməkxanalar, ən son avadanlıqla təchiz edilmiş kompyuter otaqları, emalatxanalar, idman zalları, geniş meydançalar yaradılıb.

”Uşaq evləri və internat məktəblərinin inkişafı” proqramı çərçivəsində ölkə ərazisində 39 uşaq müəssisəsi əsaslı şəkildə yenidən qurulub, müasir avadanlıqla təchiz olunub, əlavə yardımçı binalar inşa edilib və kommunal şərait yaxşılaşdırılıb. Həmçinin bu proqram çərçivəsində uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızlar üçün yaşayış binaları inşa edilmişdir. Fond, eyni zamanda, uşaq evlərinə və internatlara daim xüsusi diqqət göstərir, burada təhsil alanların asudə vaxtlarının səmərəli keçirilməsi, onlara vətənpərvərlik hissinin aşılanması məqsədi ardıcıl olaraq kütləvi tədbirlər, festivallar, müsabiqələr keçirir. Heydər Əliyev





Fondu və Fondun prezidenti Mehriban Əliyeva tərəfindən qaçqın və məcburi köçkün ailələrinin uşaqlarına da daim xüsusi diqqət və qayğı göstərilir. Fondun reallaşdırdığı ”Təhsilə dəstək ” proqramı çərçivəsində mütəmadi olaraq qaçqın, məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə məktəb ləvazimatlarının hədiyyə olunması artıq ənənə halını almışdır.

Heydər Əliyev Fondunun ”Təhsilə dəstək” layihəsi çərçivəsində Azərbaycanla yanaşı, bir sıra xarici ölkələrdə də məktəblər yenidən qurulmuş və əsaslı təmir olunmuşdur. Bu sırada Pakistanın Müzəffərabad şəhəri Rara ərazisində zəlzələdən sonra dağılmış qızlar üçün yeni orta məktəb binasının inşası, Gürcüstanda həyata keçirilən layihələr və bu kimi digər addımlar Fondun xoş məramının göstəricisidir.

Fond tərəfindən reallaşdırılan ”Məktəbəqədər təhsil müəssisələrinin inkişafı” proqramı çərçivəsində isə paytaxtla yanaşı, bölgələrimizdə yüksək standartlara cavab verən 175 körpələr evi-uşaq bağçası inşası nəzərdə tutulur.

Ümummilli lider Heydər Əliyev hər zaman səhiyyəyə xüsusi həssaslıqla yanaşı, tibb sahəsində çalışanlara böyük hörmət və ehtiramla yanaşaraq ”Həyatını tibb, səhiyyə işinə, insanların sağlamlığının keşiyində durmaq işinə həsr edən adamlar həqiqətən çox yüksək hörmət və ehtirama layiq olan insanlardır” deyirdi. Heydər Əliyev Azərbaycanda səhiyyə sistemini dünyanın bu sahədə qabaqcıl ölkələrindəki səviyyəyə qaldırmağı qarşıya əsas vəzifə kimi qoymuşdu.

Ölkəmizdə bu sahənin də inkişafına dövlətimizin başçısı Cənab İlham Əliyev xüsusi diqqət və qayğı göstərir. Bu gün paytaxt Bakıda və ölkəmizin bütün bölgələrində yüksək standartlara cavab verən, ən müasir tibbi avadanlıqlarla təchiz edilmiş səhiyyə müəssisələri istifadəyə verilir, peşəkar kadrlar hazırlanır, İcbari Tibbi Sıxortanın tətbiqi isə səhiyyə sahəsinin imkanlarını daha da genişləndirmişdir.

Heydər Əliyev Fondu da dövlətimiz tərəfindən bu sahədə görülən işlərə hər zaman öz dəstəyini ən yüksək şəkildə verir. Fond tərəfindən həyata keçirilən ”Diabetli uşaqlara ən yüksək qayğı”, ”Talassemiyasız həyat naminə”, ”Tibb müəssisələrinin yenidən qurulması və inşası” kimi bənzərsiz layihələr, bir çox xeyriyyə aksiyaları Ümummilli Liderimizin bu sahə ilə bağlı ideyalarının reallaşması istiqamətində atılan addımlara mühüm töhfələrdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakıda müasir Talassemiya Mərkəzi tikilmiş, Mehriban xanım Əliyevanın şəxsi diqqət və qayğısı sayəsində Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya Mərkəzi, Mərkəzi Neftçilər Xəstəxanasında Cərrahiyyə və Orqan Transplantologiya Mərkəzi, Psixo-nevroloji Uşaq Mərkəzi, eləcə də digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Heydər Əliyev Fondunun bu sahədə reallaşdırdığı layihələr Azərbaycanın bütün regionları ilə yanaşı, ölkəmizin hüdudlarından kənarda da uğurla həyata keçirilib. Cibutidə, Bosniya-Herseqovinada, Rusiyada, Gürcüstanda icra edilən layihələr bütün dünyaya Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın simasında Azərbaycan xalqının insanpərvərliyini, nəcibliyini nümayiş etdirir.

Ulu Öndər Heydər Əliyev mədəniyyəti xalqın böyük sərvəti hesab edir, hər zaman bu sahənin inkişafına xüsusi diqqət yetirirdi. Tez-tez mədəniyyət xadimləri ilə görüşən Ümummilli Lider onlarla səmimi söhbət edər, mövcud problemlərlə maraqlanardı. Müstəqilliyin ilk illərində tənəzzül dövrünü yaşayan mədəniyyətimiz Ulu Öndərin hakimiyyətə qayıdışından sonra yeni inkişaf yoluna qədəm qoydu. Bu gün də Azərbaycan mədəniyyəti həmin qayğıdan bəhrələnərək yeni-yeni uğurlara imza atır. Cənab Prezident İlham Əliyevin və birinci vitse prezident Mehriban Əliyevanın mədəniyyət xadimləri ilə tez-tez görüşü, onlarla aparılan səmimi söhbətləri əsası Ulu Öndər tərəfindən qoyulmuş bu qayğının davamlı olduğunu bir daha təsdiq edir. Tarixi-mədəni abidələrin bərpası, yeni mədəniyyət ocaqlarının tikilib istifadəyə verilməsi, mədəniyyət işçilərinin sosial rifahının yaxşılaşdırılması istiqamətində atılan addımlar isə bu sahənin çiçəklənməsini, yeni-yeni uğurların qazanılmasını şərtləndirən əsas amillərdəndir.

Bu sahədə əldə olunan nailiyyətlərdə Heydər Əliyev Fondunun mühüm töhfəsini xüsusi qeyd etmək vacibdir. Fondun bu sahədə həyata keçirdiyi layihələr daim Azərbaycan mədəniyyətinin inkişafında yaxından iştirak etdiyini göstərir. Bu xüsusda tarixi-mədəni abidələrimizin qorunması və bərpası, yeni mədəniyyət obyektlərinin istifadəyə verilməsini qeyd etmək lazımdır.

***Ardı Səh. 10***

# Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır və qalib gəlir

Əvvəli Səh. 9

Ötən 20 ildə Gəncədə Cavad xanın qəbri üzərində məqbərənin ucaldılması, Gəncə qapılarının, ”Qu quşları” fəvvarə kompleksinin bərpası, Müasir İncəsənət, ”Tullantıdan sənətə”, ”XX-XXI əsr Azərbaycan rəngkarlığı”, Azərbaycan Xalça, Daş salnamə, Dəmirçi Arxeologiya və muzeylərin açılması, yeni-yeni mədəniyyət saraylarının, muğam mərkəzlərinin, musiqi məktəblərinin istifadəyə verilməsi Heydər Əliyev Fondunun bu sahədə gördüyü irimiqyaslı işlərin tərkib hissəsidir. Milli mədəniyyətimiz sahəsində Fonduntəşkilatçılığı ilə keçirilən və ənənə halını alan müxtəlif musiqi layihələrini, o cümlədən Qəbələ, Aşıq, ”Muğam aləmi”, Mstislav Rostropoviç, Üzeyir Hacıbəyli beynəlxalq festivallarını, muğam televiziya müsabiqələrini, çoxlu sayda konsertləri xüsusi qeyd etmək lazımdır. 2011-ci ildə ”Eurovision” beynəlxalq mahnı müsabiqəsində qalib gələn Azərbaycan 2012-ci ildə Heydər Əliyev Fondunun yüksək tərəfdaşlığı ilə bu müsabiqəyə uğurla ev sahibliyi etmişdir. Ümumiyyətlə, Heydər Əliyev Fonunun reallaşdırdığı hər bir layihə yüksək təşkilatçılığı, kütləviliyi, zəngin mədəniyyətimizə istinad olunması ilə seçilməklə maariflənməni, sülhü, bəşəri dəyərlərə hörməti təbliğ edir. Azərbaycanda ilk dəfə təşkil olunan Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı da məhz Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş layihələrdəndir.Fond tərəfindən təşkil edilən çoxsaylı mədəni layihələr, keçirilən tədbirlər, o cümlədən simpoziumlar, sərgilər, konsertlər, tamaşalar cəmiyyətimiz tərəfindən böyük rəğbətlə, məhəbbətlə qarşılanır və böyük auditoriya toplayır. Məhz bu görülən işlərin nəticəsidir ki, bu gün Azərbaycan cəmiyyəti Mehriban xanım Əliyevanı həm də mədəniyyətimizin hamisi kimi qəbul edir.

”Azərbaycan xalqı dünya xalqları içərisində öz yüksək mədəniyyəti ilə, elmi, zəkası ilə seçilən bir xalqdır. Bizim - bugünkü nəsillərin, gələcək nəsillərin vəzifəsi bunu dünyaya göstərmək sonrakı nəsillərə çatdırmaqdan ibarətdir”,- deyən Heydər Əliyev hər bir Azərbaycan vətəndaşının qarşında ciddi vəzifələr qoyurdu. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri də mədəniyyətimizin, dövlətçilik ənənələrimizin, tariximizin dünyada təbliği işinə yönəlib. Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı əsl həqiqətlərin dünya ictimaiyyətinə dolğun və ətraflı şəkildə çatdırılması, Xocalı soyqırımının tanıdılması, mədəniyyətimizin, tariximizin, təbiətimizin, dövlətçilik ənənələrimizin xaricdə təbliği işinin düzgün qurulması nəticəsində Fond ciddi nailiyyətlər əldə etmişdir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən ”Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Məhz bu tədbirlərin nəticəsidir ki, artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatlar təsdiqini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb.

Azərbaycanın bənzərsiz mədəniyyətinin dünyada təbliği missiyasını da Heydər Əliyev Fondu müvəffəqiyyətlə icra edir. Fondun təşkilatçılığı ilə mötəbər beynəlxalq qurumlarda, dünyanın möhtəşəm şəhərində ölkəmizlə bağlı sərgilər, mədəniyyət gecələri və digər tədbirlər keçirilir. Azərbaycanın dünyada daha yaxından tanıdılması istiqamətindəki xüsusi əhəmiyyəti ilə yanaşı, beynəlxalq ictimaiyyətin də ölkəmizə olan marağının daha da artmasına xidmət edib.



Ulu Öndərin ideallarını yaşadaraq ümumbəşəri dəyərlərə mühüm töhfələr verən Mehriban xanım Əliyeva bu xoş məramı ilə beynəlxalq ictimaiyyətində böyük hörmət və rəğbətini də qazanmağı bacarıb. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun sərhəd tanımayan xeyirxah təşəbbüsləri ona dünyada böyük nüfuz qazandırıb.

Fond tərəfindən Pakistan, Cibuti, Bosniya və Herseqovina, Misir, Hindistan, Haiti və digər ölkələrdə həyata keçirilən xoşməramlı aksiyalar dünyada Azərbaycana olan rəğbəti daha da artırır. Həmçinin dünyada mədəni irsin qorunması, tarixi-mədəni abidələrin və mədəniyyət obyektlərinin bərpası Fondun fəaliyyətində mühüm istiqamətlərdən birini təşkil edir. Bu sahədə görülən işlər, həyata keçirilən layihələr Azərbaycanın mədəni əlaqələrinin möhkəmlənməsində də müstəsna rola malikdir. Strasburq Kafedral kilsəsinin XIV əsrə aid olan beş pəncərəsinin, Versal Sarayının parkındakı ”Amazonka”nın və ”Qulpları favn başları ilə bəzədilmiş vaza”nın, Fransada X-XII əsrlərə aid 7 kilsənin, Bolqarıstanın Veliko Tırnovo şəhərində yerləşən ”Trapezitsa” Memarlıq Muzeyi Qoruğunun bərpasını, Romanın Kapitolini Muzeyinin ”Filosoflar zalı”nın təmirini həyata keçirən Heydər Əliyev Fondu Parisin Luvr muzeyində İslam incəsənətinə həsr olunmuş yeni zalların yaradılmasında iştirak edib, həmçinin İkinci Dünya müharibəsi illərində dağıdılmış və yandırılmış Berlin qəsrinin bərpası təşəbbüsünə qoşulmuşdur. Bunlardan əlavə olaraq Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında imzalanmış ”Roma katakombalarının bərpasına dair ikitərəfli Saziş” əsasında Fond tərəfindən xristian aləmi üçün ən mühüm abidələrdən olan katakombaların bərpası işində yaxından iştirak edib.

Görülmüş böyük işlərin təməlində vətənə, xalqa bağlılıq, insanlığa, bəşəriyyətə olan sonsuz sevgi və bu məhəbbətdən doğan yorulmaz və gərgin əmək dayanır. Mehriban xanım Əliyevanın təşəbbüsləri, ideyaları əsasında fəaliyyət istiqamətini genişləndirən Heydər Əliyev Fondu hər zaman ehtiyacı olanların, kimsəsizlərin yanında olur, cəmiyyətimizi narahat edən hər bir məsələnin həllində yaxından iştirak edir. Fədakarlıq missiyasını öz üzərinə götürərək illər ərzində göstərdiyi saysız-hesabsızxidmətləri ilə Mehriban xanım Əliyeva xalqın böyük sevgisini qazanıb. 2017-ci ildə Cənab Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilən Mehriban Əliyeva bu məsuliyyətli və şərəfli vəzifənin də öhdəsindən ləyaqətlə, qətiyyətlə gəlir. Birinci vitse-prezident kimi ilk müşavirəsini qaçqın və məcburi köçkünlərin problemlərinə həsr edən Mehriban Əliyeva daim əhalinin həssas təbəqəsinin yanında olur, onları narahat edən məsələləri bir başa insanların öz dillərindən dinləyir.

Mehriban xanım Əliyevanın ”Əziz analar, əziz bacılar, mən sizi çox sevirəm. Mən sizin üçün əlimdən gələn hər şeyi edəcəyəm. Mən gəlmişəm sizinlə danışım, problemlərinizi öyrənim. Sizə söz verirəm, həm cənab Prezident, həm mən daim sizin yanınızdayıq...” sözləri hər bir azərbaycanlını bir daha əmin edir ki, onları narahat edən hər bir məsələ Azərbaycan Prezidentinin, Birinci-vitse-prezidentin diqqət mərkəzindədir.

Erməni işğalı nəticəsində illərdir öz doğma torpaqlarından didərgin düşmüş məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşması, onların problemlərinin həlli istiqamətində ölkəmizdə böyük işlər görülüb. Bu günə qədər 103 qəsəbə, şəhərcik salınıb, 300 mindən çox məcburi köçkün evlə təmin olunub. Mehribanın Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da bu işlərdə yaxından iştirak etmişdir Həmçinin Fond tərəfindən mütəmadi olaraq məcburi köçkünlərlə bağlı xeyriyyə aksiyaları da təşkil olunmuşdur.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Şanlı Ordumuzun gücü və Xalqımızın birliyi ilə tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsində qazandığımız ”Möhtəşəm Zəfər”dən sonra Böyük Qayıdışın həyata keçirilməsi məqsədi ilə dərhal işğaldan azad edilmiş ərzilərimizin yenidən qurulmasına başlanıldı. Azad olunmuş ərazilərimizin yenidən qurulmasında Heydər Əliyev Fondu da yaxından iştirak edir, tarixi və dini abidələrin, məscidlərin bərpası ilə bağlı layihələr həyata keçirir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə Fondun reallaşdırdığı layihələrin əhatə dairəsi olduqca genişdir. İndiyədək bu layihələrin bir qismi tam icra olunub. Məsələn, 2021-ci ildə Şuşada dahi Azərbaycan şairi və ictimai xadim Vaqifin muzey-məqbərə kompleksinin yenidənqurulması cəmi bir neçə aya başa çatdırılıb. Abidənin hər detalında tarixi görkəmi qorunub saxlanılıb. Fondun dəstəyi ilə Şuşada Vaqifin büstü və görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəli bərpa olunmuşdur. Üzeyir Hacıbəylinin Şuşadakı ev-muzeyi, mühüm tarixi memarlıq abidəsi olan Mehmandarovların malikanə kompleksi, ”Şirin su” hamamı da Heydər Əliyev Fondu tərəfindən bərpa olunub. Azərbaycanın tanınmış tarzəni Sadıqcanın Şuşadakı evinin bərpasını da Fond həyata keçirir. Fondun işğaldan azad olunmuş ərazilərdə reallaşdırdığı layihələrin bir qismi də məscidlərin bərpası ilə əlaqəlidir. Hazırda Şuşa məscidləri, həmçinin Ağdam ”Cümə” və Zəngilan məscidləri Heydər Əliyev Fondu tərəfindən bərpa edilir.

Azərbaycanda xeyriyyəçilik institutunun dirçəlməsi, fəal inkişafıvə daha geniş vüsət alması məhz Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. 2008-ci ildə AZƏRTAC müsahibəsində özünün xeyriyyəçilik fəaliyyətinin istiqamətləri barədə danışarkən demişdi: ”Mən bizim çox zəngin mədəni ənənələrimizin qorunub saxlanması, nadir tarixi və memarlıq abidələrinin mühafizəsi, təbii mühitin qorunması, istedadlı gənclərə dəstək, bədən tərbiyəsi və idmanın inkişafına kömək məsələlərini də xeyriyyəçilik fəaliyyətinin üstün istiqamətlərinə aid edərdim”. Ötən illərdə görülən işlərə nəzər saldıqda bütün bu sahələrdə Mehriban xanım Əliyevanın xeyriyyəçilik missiyasının dərin izlərinin bir daha şahidi olaraq. Aztəminatlı ailələri, şəhid ailələrini, məcburi köçkünləri, istedadlı gəncləri əhatə edən bu xeyirxahlıq missiyası Mehriban xanım Əliyevaya milyonların sevgisini qazandırdı.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ilk Avropa Oyunlarının və IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin rəhbəri kimi fəaliyyəti bu yarışların Olimpiya Oyunları səviyyəsində təşkilində mühüm rola oynadı. Uzun müddət bütün dünyanın diqqət mərkəzində olan Azərbaycan məhz Mehriban Əliyevanın yüksək təşkilatçılıq qabiliyyətinin sayəsində bu mötəbər tədbirlərə uğurla ev sahibliyi etdi. Təsadüfü deyil ki, ilk Avropa Oyunlarının təşkilindəki böyük xidmətlərinə görə Prezident İlham Əliyevin Sərəncamı ilə Mehriban Əliyeva ”Heydər Əliyev” ordeni ilə təltif olundu. Həmçinin Mehriban xanım Əliyevaya idman sahəsindəki xidmətlərinə görə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan Ali Orden, Beynəlxalq Ədaləti Oyunlar Komitəsinin ”Xüsusi xidmətlərə görə” medalı, Beynəlxalq Olimpiya Akademiyasının ”Olympic Excellence” xüsusi fəxri mükafatı da təqdim edilib.

Təməl prinsiplərində Ulu Öndərin ideyalarına söykənən Heydər Əliyev Fondu ölkəmizin çiçəklənməsinə mühüm töhfələrini verməklə xeyirxahlıq missiyasını, Azərbaycanın, onun mədəniyyətinin təbliğini uğurla həyata keçirir, Vətənə və xalqa ləyaqətlə xidmət edir. Görülmüş nəhəng və fundamental işlər bir daha onu göstərir ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır və qalib gəlir.

# “Məxməri” inqilab deyilən UNUDULMUŞ TARİX



Sərhədlərin delimitasiyası üzrə Ermənistan-Azərbaycan komissiyasının işə başlaması, Azərbaycanla həmsərhəd kəndlərin sakinlərinin etirazları, onların polislə qarşıdurmaları, ehtiyatsızlıq edən fəalların saxlanılması, qondarma erməni soyqırımı deyilən uydurmanın ildönümünün anılması nəzərdə tutularaq, sonuncu həftənin, son günlərin yadda qalan olduğu qənaətində olan haylar, əli sarıqlı, beli çantalı küçə nümayişçisinin, Nikol Paşinyanın illərlə öncə məhz bu dönəmlərdə meydana atıldığı tarixin unudulduğunu da etiraf edirlər, çünki heç hayların yadlarında da düşmədiyini görürlər. Eyni zamanda, Ermənistanın siyasi həyatını izlədiklərini bəyan edən erməni siyasətçilər, təkcə son həftə ərzində belə cərəyan edən hadisələrə diqqət yetirildiyini, yadda qaldığını, amma inqilab adında ”nəinsə” yada salınmadığını, hətta unudulmuş tarix olduğunu bildirirlər.

### İnqilab deyilən ”qaragüruhun”, Qərbin adamının hakimiyyətə yerləşdirilməsinin yada salınmasını istəyən belə yox imiş

Bəli, həqiqətən də 23 aprel tarixinin Ermənistanda ”məxməri” inqilabın ildönümü olduğu heç kimin, bircə dənə də olsa erməninin yadına belə düşmədi. ”Məxməri” deyilən inqilabın ildönümü görünür, Nikol Paşinyanın da yaddşından silinib. Unudulub. Görünür, 2018-ci ildə bir neçə həftəlik yürüşlərdən və küçələrin bağlanmasından sonra ölkədə hakimiyyət dəyişikliyinin baş verdiyini, baş nazir Serj Sarkisyanın siyasi səhnədən uzaqlaşdırıldığı, istefa verdiyi və Nikol Paşinyanın hakimiyyət kürsüsünü ələ kecirdiyini haylar heç yada da salmaq istəmirlər. Əks halda, ölkə ictimaiyyətinin bununla bağlı hansısa bir xatırlamasının şahidi olardıq. Belində çanta küçələrdə var səsi ilə qışqıran Nikol Paşinyan yəqin, əli yaralandığını da unudub. Yaxud da, heç onun özü də bu qondarma inqlab haqqında düşünmək, xatırlamaq istəmir, baxmayaraq ki, inlabla hakimiyyəti əlinə keçirmiş oldu. Belə çıxır ki, həmin inqlab deyilən ”qaraguruhun” mahiyyət etibarı ilə bir nəfərin, daha dəqiq desək, Qərbin adamının hakimiyyətə ”yerləşdirilməsi” olduğunu artıq haylar anlayıblar və onlara ”qızıl dağlar” vəd edən adamın heç nəyə nail olmadığını, Qərbin də onlarla ”oyun” oynadığını başa düşdükləri üçün bu tarixi yada da salmırlar, yəni, çoxdan unudlar.

### Həmin tarixin bir də xatırlanılması, yada salınması zərrə qədər də maraq kəsb etmir

Doğrudur, Qarabağ klanının, Sarkisyan və Koçaryanların ”nəğməsi” çoxdan oxunmuşdu və onların istefası, siyasi səhnədən getmələri labüd idi. Haylar da yaxşı başa düşürlər ki, həmin klanın hakimiyyəti davam edə bilməz. Başa düşürdülər ki, onlar getməlidirlər. Amma bununla belə haylar qarşılaşdıqları məğlubiyyətlərinin, ələlxüsus 44 günlük müharibə zamanı rüsvayçı məğlubiyyətlərinin, qarşılaşdırları səfalətin, rəzaləyin fonunda onların gedişinə də, Nikol Paşinyanın gəlişinə də sevinə bilmədilər. Bəzi erməni siyasətçiləri 44 günlük müharibədən sonra elə bir şəkildə təəssüflə deyirdilər ki, aprelin 23-də məxməri inqilab oldu, Paşinyan hakimiyyətə gəldi, aprelin 24-dən erməni ”soyqırımına” onun tərəfindən başlanıldı. Təbii ki, onlar qarşılaşdıqları rüsvayçı məğlubiyyət fonunda, itgilərini nəzərə alaraq belə fikirlər səsləndirirdilər. Məhz indi də, 2024-cü ildə heç bir jurnalist və ya politoloq tərəfindən 23 aprel gününün Sarkisyanın başçılıq etdiyi kriminal oliqarxiyanın avtoritar rejiminin devrildiyini belə dilə gətirmədiyi səbəbsiz deyil. Çünki Qərbin demokratiya adı qoyduğu qondarma ”inqlab” oyununun mahiyyətinin əslində yalnız haylardan istifadə edərək, Rusiya yönümlü qüvvələrin devrilməsi, uzaqlaşdırılması, hansısa qüvvələrin öz maraqları naminə təşkil edilməsi indi erməni cəmiyyətinə gec də olsa aydın olub.

### Ermənistanda demokratiyadan danışmaq, həmin inqilabdan sonra müsbət dəyişikliklərin olduğundan bəhs etmək olmaz

İndi Ermənistanda demokratiyadan danışmaq, həmin inqilabdan sonra müsbət istiqamətdə dəyişikliklərin olduğundan bəhs etmək mümkündürmü? Xeyr, mümkün deyil. Çünki inqlab başa çatar-çatmaz dərhal vətəndaşların ”qara” və ”ağ”lara bölünməsinə başlanıldı. Baş nazir bir sıra ”istədiyi” qərarları qəbul etməyə başladı. Onun qəbul etdiyi qərarlar cəmiyyəti, erməni cəmiyyətini əhəmiyyətli dərəcədə parçaladı. Bütün bunlar da məhz baş nazirin populist şüarları altında baş verdi, müşahidə edildi. Özündən əvvəlki hakimiyyəti rüşvətxorluqda, dövlət vəsaitlərini mənimsəməkdə ittiham edən Paşinyan hökumətinin özünün də pula, var-dövlətə həris olduğu ortaya çıxdı, bəlli oldu. Onlar büdcədən birbaşa pul mənimsəməsələr belə, ”səxavətlə” özlərinə bonuslar yazmağa başladılar və bununla bağlı qətiyyən ”xəsislik” etmədilər. Öz iş yerinə velosipedlə gedən, bunu nümayişkəranə edən erməni baş nazir Nikol Paşinyan, sonradan ən son model və ən bahalı avtomobillərdə gəzməyi, ucqar kəndlərə belə həmin avtomobillərdə yollanmağı qərara almış oldu. Bir-birinin ardınca xarici ölkələrə səfərlər edərkən də rəzil və səfalət durumunda olan Ermənistanın büdcəsini qətiyyən nəzərə belə almadı və xüsusən özü üçün nəzərdə tutulan təyyarələrdə mütəmadi olaraq səfərlər etməyə başladı. Nikol Vovayeviçin hər gün öz mühafizəçilərinin sayını artırması da erməni cəmiyyətinin diqqətindən yayınmadı və onun əhali ilə son görüşünə səkkiz mühafizəçi ilə getdiyini haylar dərhal müşahidə etdilər. Hətta, Ermənistana məxsus mətbuat səhifələrində də bunu əks etdirən foto və video materiallar yaymlandı və bu zaman sual olunurdu ki, erməni baş nazir nədən belə qorxmağa başlayıb ki, mühafizəçilərinin sayını artırmalı olub? Belə çıxır ki, Nikol elə nədənsə qorxurmuş. Əks halda heç mühafizəçiyə belə ehtiyac duymamalı idi, axı onu guya xalq seçmişdi və xalqın adamı, xalqının maraqlarından çıxış edən adam kimi tanımalı idilər. Deməl, qeyd olunan kimi tanınmadığını özü hamıdan yaxşı bilir və belə birinin küçə və meydanda inqlab deyə çığırması, yaxud, nəticədə onun hakimiyyətə gəlməsi və erməni cəmiyyətinin heç bir nailiyyət əldə etməməsi fonunda niyə də haylar ”məxməri” deyilən qondarma inqlabı yada salmalı idilər? Bunun, bu qondarma inqlabın unudulması elə tamamilə məntiqidir və bunu, unudulmuş tarixi elə haylar özləri də qəbul etməkdədirlər.

Ermənistan üçün demokratiya deyilən bəhanələr də ciddi şəkildə qəbul edilmir. Azad söz, insan haqları deyilən istiqamətdə də vəziyyət haylar üçün ürəkaçan deyil. Bələki, Freedom House və Dövlət Departamenti də şahidlik və təsdiq edir ki, Ermənistanda nə hüquqşünaslar, nə də jurnalistlər özlərini azad hiss etmirlər. Yəni, demokratiya bəhanəsi ilə Ermənistana soxulan, demokratiyanı alət edərək İrəvanda özünə yer eləməyə çalışan Qərb özü də həmin ölkədə demokratiyanın olduğunu inkar edirsə, təsdiqləmirsə, haylar hansı günlərinə sevincək olub, həmin o ”məxməri” deyilən qondarma inqlabı xatırlamalı idilər axı? Həmin o inqilab adlı oyundan haylara qalan nə oldu, səfalətdən, rəzalətdən başqa? Belə bir tarixin unudulması məhz bu baxımdan heç də təəccüb doğurmur.

### Hayların taleyinə dünyanın heç bir yerində qibtə edən tapılmaz

Haylar artıq heç bir müqavimət göstərə bilməyəcək qədər zəifdirlər və bunu özləri hamıdan yaxşı bilirlər, yoxsa çoxdan burunlarını ərazilərimizə soxar, hansısa əraziləri ələ keçirmək üçün ortaya atılardılar. Bilirlər ki, zəiflikləri bir tərəfə, Qərb ölkələri ilə Rusiya arasında bütün mümkün manipulyasiyalara əl atdıqları üçün vəziyyətlətləri tamamilə açınacaqlıdır. Üstəlik, Moskvanın haylara eyham vurmasından sonra, bədbəxt Ukraynanın taleyini bölüşə biləcəkləri barədə xəbərdarlığından sonra yuxuları da ərşə çəkilib. Bu ölkənin taleyinə dünyanın heç bir yerində qibtə edən tapılmaz. Artıq geriyə qayıtmağın mümkün olmayacağını, artıq əvvəlki kimi olmadıqlarını, ətrafdakı mühitin, dünyanın da eyni olmadığının düşünən haylar yollarının ümidsizlikdən keçdiyi qənaətinə gəlməkdədirlər. Levon Zurabyan kimi partiya sədrlərinin, siyasətçilərin timsalında hər bir erməni düşünür ki, erməni baş nazir ”həm özünü, həm də Ermənistanı çıxılmaz vəziyyətə salıb”. Bir çoxları proqnoz verirlər ki, ölkəyə rəhbərlik etməyə layıq fiqur sayılmayan Nikol Paşinyan bəlkə də yaxın zamanda ölkəni idarə etməkdən uzaqlaşdırılar. Hətta bir çoxları onu da gizlətmirlər ki, kim bilir, vəziyyət onun üçün xoşagəlməz inkişaf etdiyi təqdirdə, ölkəni tərk etməli belə ola bilər. Təbii ki, buna da hətta şansı, imkanı ola bilsə. İndi bütün bunların fonunda həmin o haqqında proqnozlar verilən Paşinyanın hakimiyyətə gəlişini təmin edən qondarma, dırnaqarası ”inqilab” kimin üçün bayram hesab oluna bilər axı? Belə bir günü kim xatırlaya bilər? Bu tarix unudulmaya bilərmi?

*İnam Hacıyev*



Lalə Mehralı

# Analar qurban demir

Dünyanın ən təsvirolunmaz hissidir ana olmaq. Bu, nə qədər çalışsan da sözlə ifadə edilməyəcək duyğudur. Qadın ana olduqdan sonra heç vaxt hiss etmədiyi duyğuları kəşf etməyə, öyrənməyə başlayır. Elə bu hisslər analığı dünyanın ən gözəl duyğularına çevirir. Çox şeyi bacarırıq əslində biz, ən ağır işlərdə işləyirik, ən zəhmətli peşələrin öhdəsindən gəlirik, amma ən çox ana olmağı sevirik. Dünyanın ən ağır peşəsini yəni. Ana olanda xoşbəxtliyin böyük şeylərdə deyil, ən kiçik anlarda gizləndiyini anlamağa başlayırsan. Körpənin bir təbəssümü, şirin yuxusu, qığıltısı, ilk addımları - hamısı xoşbəxtlikdir. Ən yorğun anlarda belə kiçik bir təbəssüm səni dünyanın ən xoşbəxt insanı etmək üçün kifayətdir. Çox xırda şeylərlə xoşbəxt olmağı öyrənirsən ana olduqdan sonra.

İçindəki sonsuz gücün fərqinə varırsan ana olduqdan sonra. Bu qədər yuxusuz gecə keçirib bu qədər enerjili ola bilmək xüsusi bacarıqdır məncə. Bəzən özünə vaxt ayırmamaqdan və kifayət qədər dincəlməməkdən şikayətlənirik, ta ki körpənin qığıltısını eşidənədək. O yorğunluq, o yuxusuzluq itib gedir o səsin kölgəsində. Bitmisən, tükənmisən, yorulmusan, yuxusuzsan, acsusuzsan, amma yenə də analığı dünyada heç nəyə dəyişmirsən.

Ana olmağın nə olduğunu başa düşdükdən sonra bütün analara, xüsusən də öz ananıza olan minnətdarlıq hissiniz qat-qat çoxalır. Bu günədək əhəmiyyət vermədiyin, etinasızlıq göstərdiyin nələr varmış, indi görürsən. Ananın sənin üçün etdiyi şeylərin nə qədər dəyərli, nə qədər böyük olduğunu anlayırsan. Başqa heç bir hiss bu qədər duyğunu bir arada yaşatmır insana - xoşbəxtlik, məmnunluq, sevgi, məhəbbət, sevinc, qayğı, narahatlıq, qorxu, həyəcan - bunun kimi nə qədər duyğunu hər gün istisnasız olaraq yaşayırsan əgər anasansa.

Körpən doğulur xoşbəxtsən, qazı var, narahatsan, ilk reaksiyalarını göstərir, sevinirsən, o gülür, sən məmnunsan. Onunla bərabər qulaq ağrısı, qaz sancısı çəkirsən - narahat olursan, amma yenə də məmnunsan. Körpən rahatdırsa sən də rahatsan, onun bir yuxusuz gecəsi səndə saysız-hesabsız sual doğurur. Onunla bərabər gün-gün, həftə-həftə, ay-ay, il-il böyüyürsən. Bağça, məktəb yollarında yenidən var-gəl edirsən.

Uşağın olmazdan əvvəl bir həyatının olduğunu unudursan, ana olmaq həyat tərzinə çevrilir. Nə özəlin qalır, nə şəxsi həyatın. Əgər geri dönüb uşaqsız həyatına baxmaq istəsən hər pəncərəsində onu görürsən. Övlad sahibi olmaq və onu böyütmək həyatı dəyişdirən bir təcrübədir, sən bu təcrübəni sevirsən. Ana olmaqdan zövq alırsan və zaman keçdikcə ana olmaq üçün doğulduğunu düşünməyə başlayırsan.

Analıq hissiyyatı doğuş anında çəkdiyi ağrını, sancını unutdurur. Doğuşun hər detalını, hər incəliyini xatırlayırıq, amma dünyada başqa təsviri, bənzəri olmayan ən dəhşətli ağrı olan doğuş ağrısı silinir yaddaşımızdan. Çünki övlad məhəbbəti o ağrıdan ağır gəlir tərəzidə. Ona görə yenidən, yenidən ana oluruq.

Ev oluruq balamıza, yuva oluruq, həyan oluruq, oyun yoldaşı oluruq, dost oluruq, rəfiqə oluruq, sirdaş oluruq. Biz hər şey oluruq övladımıza, həm də qurban oluruq balamıza - ilk addımına, ilk kəlməsinə, uğuruna, sevincinə, ilk məhəbbətinə, eşq acısına, sağlamlığına, gülüşünə, zəkasına, ömrünə. Ana olduqdan sonra leksionumuzdakı hər üç kəlməmizdən ikisi olur ”qurban olum!” kəlməsi. Qurban olmaq həyat tərzimizə çevrilir, ayağına batan tikan bağrımızı deşir, gözünə düşən qum dağ olur çiynimizdə. Necə deyir şair? ”Analar qurban demir, qurban olur analar”. Övladı üçün şam kimi əriyən bütün analara sevgilərlə...

ARAŞDIRMA

# Yayda hansı parça və rənglər tərlətmir?

***Yayda ən böyük problemlərdən biri də paltarlarımız üçün hansı parçanı seçməkdir. Bəs, yayda bizi tərlətməyən və daha rahat hiss etməmizə şərait yaradan bu parçalar hansılardır?***
SİA mövzu ilə bağlı araşdırma aparıb.

İpək parça, poplin parça, krep parça və kətan parça yayda ən keyfiyyətli və faydalı parça növlərindən biridir. Yayda ağır çəkili parçalardan qaçınmaq lazımdır.





## Kətan parça

Böyük məsamələri olduğu üçün bədənin rahat nəfəs almasını təmin edən kətan parça yay aylarında ən çox istifadə edilən parça növlərindən biridir. Təbii lif olan kətan tüksüz, hamar və davamlı quruluşa malikdir. Həmçinin, tez çirklənmir. Elastik quruluşa malik olmasa da, bədənin nəfəs almasını təmin etdiyi üçün təravət verir. Yay aylarında çox üstünlük verilən kətan parça hər cür geyimə çox qəşəng bir görünüş qatır.

## İpək parça




Bu siyahıda olmasına baxmayaraq, ipək parça yay günlərində mövcud olan günəşli və çox isti havalara nisbətən yay gecələrində istifadəyə daha uyğundur. Günəş işığı ipək parçanın saralmasına və ləkələnməsinə səbəb ola bilsə də, gecə istifadə edərkən sizi qəşəng və təravətli saxlayacaq. İpək parça nəm saxlamadığı və yüngül bir parça olduğu üçün sərin yay gecələrini keçirməyə kömək edəcək.

## Poplin parça

İncə saplarla sıx toxunmuş poplin parça çox yumşaqdır. Tərləməni nəzarət altında saxlaya bilən quruluşu sayəsində yay aylarında tez-tez seçilən bir parça növüdür. İncə, yumşaq, yüngül və tərə davamlı poplin parça ümumiyyətlə köynəklərdə istifadə olunur və çox qəşəng bir görünüş verir.

## Tül parça

Seyrək və incə toxunmuş quruluşu sayəsində yüngül, yumşaq və pambıq olduğu üçün yay paltarlarında da tez-tez seçilir.

## Pambıq parça

Yuxarıda qeyd etdiyimiz bütün parçaların strukturlarından da göründüyü kimi yayda ən çox seçilən və faydalı məhsullar ümumiyyətlə pambıqdır. Pambıq parçalar tərin buxarlanmasına və hava ilə qarışmasına imkan verir. Elastik parça növü olan bu parça da sizi sərin saxlayır. Geyiminizdə pambıq parçaları seçmək yayı çox rahat keçirməyinizə kömək edəcək.



## Sile bezi

Tərləmə əleyhinə parçalar dedikdə ilk ağıla gələn variantlardan biri sile parçadır. Sile parça paltar, köynək, kofta və hətta şalvar variantları ilə rahat bir yay keçirə bilərsiniz. Hər mağazada tapmaq asan olmasa da, axtardığınız zaman bir çox satış nöqtələrində sile parça məhsullarına rast gəlmək mümkündür.

## Krep parça

Krep dedikdə ağlınıza yalnız yemək gəlirsə, krep parça ilə tanışlığı gecikdirməməyi tövsiyə edirik. Yayın istisinə asanlıqla tab gətirmək üçün bütün paltarlarınızı krep parçadan seçə bilərsiniz. Üstəlik asanlıqla yuyulub təmizlənə bilən bir parça olduğundan sizə heç bir çətinlik yaratmır.

Mövzu ilə bağlı modelyer Şəlalə Maqsudovanın fikirlərini öyrəndik: "Yayda ən önəmli nüans, parçaların keyfiyyətidir. Yəni, yayda hansı parçalar daha çox insan bədəni üçün uyğundursa, bu vacibdir.

Burada ilk növbədə kətanı vurğulamaq istəyirəm. Kətan parçalar yayda daha çox istifadə olunacaq. Nazik kətan və nazik ipəklər yay üçün idealdır. Təbii ki originallar daha çox önəmlidir. Çünki yayda isti olduğuna görə bədəndə sintetik qarışıq olan parçalar insan orqanizminə çox ziyan vurur. Kətanlardan təmiz ipəklər daha çox kalitəli və keyfiyyətlidir. Buna görə məhz yay geyimlərinin əsasən kətanlardan və ipəklərdən hazırlanmasına daha çox üstünlük verilir.

Yay mövsümündə dizaynerlər boş geyimlərə üstünlük verirlər. Bədənə boş olan geyimlər, ipli, gen-bol, üstdən birbaşa biçilmiş paltar, donlar, sarafanlar daha çox gündəmdə olacaq.

2024-ün yaz-yay kolleksiyasında əsas favoriti olan 3 rəngdir. Qırmızı, yaşıl və göy. Yaşılı vurğulamaq istəyərdim ki, tünd yaşıllar daha çox favorit olacaq.

Təbii ki yay deyərkən bizim ilk növbədə ağlımıza gələn rəng təbii ki ağ rəngdir. Klassikanın şahı olan ağ rəng bütün illərdə, bütün fəsillərdə gündəmini saxlayır".

## Yayda hansı rənglərə üstünlük verək?

Yay günlərində, adətən ağ və ya açıq rəngli paltarlar geyinirik. Ağ rəng günəş işığında bütün şüaları əks etdirir, yəni bütün rənglərin birləşməsidir. Qara rəng isə bütün şüaları udur. Qara rəngdə heç bir şüa əks olunmur.

Qara parçalar bütün işığı saxladığı üçün dərimizi ağ parçalardan 5 dərəcə daha isti saxlayır.

## Bəs, niyə Sinay səhrasındakı bədəvilər qara paltar geyinməyə üstünlük verirlər?

Çünki qara paltar parça ilə dəri arasındakı havanı qızdırmaqla yanaşı, həm də havalandırma mexanizminin işləməsini təmin edir. Bu qızdırılan havanı əvəz edən hava, bədəvilərə sərinlik hissi verir, qara paltarlar bütün günəş şüalarını dərimizə ötürür, həm də onlarla birlikdə infraqırmızı şüalar. Buna görə çox günəşli bir gündə açıq rənglər geyinmək mütləq faydalıdır.

***Ayşən Vəli***

# Əli Kərimli indi də özünü “ictimai vəkil” olaraq təqdim etməyə çalışır



Elə insanlar var ki, sosial şəbəkə fenomeni olmağından fərəh düyür, qürurlanır, bəzi hallarda təşərlənir. İnsanların şantaj olunması, təhqir edilməsi, haqqında ittihamlar irəli sürülməsi halları da sosial şəbəkələrin fəal ünsürlərinin əsas istinad etdikləri vasitələrdəndir. Bu baxımdan birmənalı şəkildə demək olar ki, sosial şəbəkələr və onların fəal ünsürləri cəmiyyət üçün təhlükə mənbəyinə çevrilir. Dövlət lazımı tədbirlər, xüsusilə də bu istiqamətdə sərt qanunlar qəbul etməsə, cəmiyyətdə ciddi fəlakətlər yarana bilər. Nəzərə almaq lazımdır ki, bir sıra ölkələrdə sosial şəbəkələr üzərində dövlət nəzarəti təmin olunub. Azərbaycanda isə dövlət internet azadlığını məhdudlaşdırmaq fikrində deyil. Bundan istifadə edən özlərinə və sözlərinə sərhəd qoymağı bacarmayanlar sosial şəbəkələr üzərindən ağıllarına deyil, ağızlarına gələnləri yazır və ya paylaşırlar. Əsasən də, özlərini siyasətçi hesab edən məxluqlar internet azadlığından geninə-boluna bəhrələnməyə çalışırlar. Nə zaman baxsan AXCP sədri Əli Kərimli, Milli Şuranın rəhbəri Cəmil Həsənli, Müsavat başqanı Arif Hacılı və cəbhəçi trollar sosial şəbəkələrdədirlər. Sanki bu məxluqların işləri, istirahətləri, yatmaqları belə sosial şəbəkələrdir. Görülən uğurlu işlərə, həyata keçirilən möhtəşəm islahatlara, göz oxşayan quruculuq, abadlıq, bərpa işlərinə yamaq vurmağa, əmmaqulu çıxartmağa, qulp qoymağa çalışırlar. Bəzi hallarda da Ə.Kərimli pafoslu şəkildə yazır ki, ”demokratiya olsa idi, filan cür yaşayış olardı”, ”gercək azadlıqlar olsa idi, insanların hüquqları filan formada təmin olunardı” və bu kimi digər özündən uydurulmuş fikirlərlə statusunu ”zənginləşdirməyə” çalışır. Lakin anlamır ki, Azərbaycan nümunəvi azad, demokratik dövlətdir. Əgər özünün uydurduğu ab-hava olsa idi, o, azadlıqda deyil, türmədə var-gəl edərdi. Doğrudan da, insan hüquq və azadlıqları sahəsində problemlər yaşansa idi, Ə.Kərimli və ətrafındakı trollar sosial şəbəkələr vasitəsi ilə xalqını sevən, dövlətinə bağlı olan ləyaqətli insanları təhqir edə bilməzdi. Əgər internet azadlığı olmasa idi, dağıdıcı müxalif ünsürlər hər fürsətdə sosial şəbəkələrdə cəmiyyəti təhdid edən, dövlətin imicinə ləkə ola biləcək şantaj xarakterli statuslar paylaşmazdı. Nəhayət, Azərbaycan humanizm prinsiplərindən, xeyirxahlıqdan uzaq olsa idi, o zaman Ə.Kərimli, C.Həsənli, F.Qəhrəmanlı, G.Hacıbəyli, S.Həzi və digərləri xaric antişəbəkə ilə əməkdaşlıq edib, ölkəmizin iç məsələlərini onlara satmazdı.

### Əli Kərimlinin insan hüquq və azadlıqlarından danışmağa haqqı yoxdur

Çox vaxtı Ə.Kərimli və ətrafında olan trollar sanki müxtəlif cinayət əməlinə görə həbs edilən şəxslərin vəkilləridir. Kim həbs edilirsə, dərhal Ə.Kərimli və trolları hay-küy qaldırırlar. Onlar üçün önəmli deyil həbs edilən dələduzdur, qoyun-quzu oğrusudur, yoxsa xarici dövlətin xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən agentdir. Əsası odur ki, mətbuatın diqqət mərkəzinə çevrilmək və sosial şəbəkələrdə status yazmaq üçün mövzuları var.

Araşdırma apararkən məlum olur ki, Ə.Kərimli istənilən həbs olunan şəxsi ”müdafiə etməklə” müəyyən məkrli məqsəd güdür. Sadəlövh azərbaycanlı elə düşünə bilər ki, Ə.Kərimli və trol dəstəsi hər kəsin ”yanındadır”. Əslində, onların niyyətləri məhz həbs olunan insanlar arasında iki-üç nəfərin müdafiəsini təşkil etməkdir. Əgər Ə.Kərimli ona təqdim edilən siyahı üzrə hərəkət edib, yalnız siyahıda adları keçən şəxslərin müdafiəsi ilə bağlı hay-küy qaldırsa, bu, sosial şəbəkədəki ”dostlar”ı arasında narazılıq yaradar. Həm də məqsədi və niyyəti faş olunar. Ona görə də, Ə.Kərimli həbs olunan istənilən şəxsin ”müdafiəçisi” rolunda çıxış etməklə əsas məkrli niyyətini ört-basdır etmiş olur. Lakin el məsəlidir, ”cidanı çuvalda gizlətmək olmaz”. Ə.Kərimlinin də məkrli planın əsl məqsədinin nədən ibarət olduğu ictimaiyyətə bəllidir. Ona görə də Ə.Kərimli belə oyunlarına son versə daha yaxşı olar. Əks halda, cəmiyyətin fəal təbəqəsi onu elə öz metodunda sıradan çıxaracaq.

***İLHAM ƏLİYEV***

# “Uşağınızı həddindən artıq nəzarət altında saxlamayın”

## *PSİXOLOQ İZAH ETDİ*





“Uşağın inkişafında valideynlərin uşaqlarına yanaşma tərzi onların gələcək həyatlarının əsasını təşkil edir”. Bu sözləri SİA-ya açıqlamasında klinik psixoloq Nərgiz Gözəlova deyib. Psixoloq bildirib ki, fərqli xüsusiyyətlərə malik olan valideynlik tərzləri sizin uşaq böyütməkdə hansı rol oynadığınızın ən böyük göstəricisidir: ”Avtoritar valideynlik tərzini mənimsəməklə, ciddi qaydalarla uşaqlarımızı sosial mediadan uzaq tutmaqla və cəzalandırıcı münasibətlə onları qorumaqdan daha çox zərər verə bilərik.

Uşağın inkişafında mühüm anlayış olan pozitiv valideynlik, uşaqlara onlardan nə gözlənildiyini sevgi və hörmətlə izah etmək deməkdir. Övladımıza sevgi və qarşılıqlı hörmət, onun şəxsiyyətinə xələl gətirməyən münasibət sərgilədikdə daha uğurlu nəticələr əldə etmək mümkündür. Sosial medianın zərərlərini izah etsək və onun nəticələrinin onların şəxsi inkişafına mənfi təsir göstərə biləcəyini hörmətlə vurğulasaq, uşaqlarımız daha şüurlu sosial media istifadəçisi ola bilərlər.Sosial media istifadəsini nəzarətli şəkildə faydalı sahəyə çevirmək mümkündür”.

”Uşağınızla sağlam qarşılıqlı ünsiyyət qurun. Birlikdə boş vaxt fəaliyyətlərini də nəzərdən keçirin. Özünü tənha hiss edən və boş vaxtlarını ailəsi ilə keçirmək imkanı olmayan uşaqlar həddindən artıq internet və sosial mediadan istifadə edirlər. Uşaqlarla mübahisə təşkil edən valideynlik rəftarları da uşağın həddindən artıq sosial mediadan istifadə etməsinə və onları zorakılıq da daxil olmaqla bir çox şifahi və davranış məzmununa məruz qoymasına səbəb olacaqdır.

* Uşağınızı hər zaman həddindən artıq nəzarət altında saxlamayın. Həddindən artıq qoruyucu ailələrdə böyüyən uşaqlarda özgüvənsiz, asılı, inadkar, utancaq və qorxaq şəxsiyyətlər formalaşır. Bu kimlik onların sosial medianın mənfi cəhətlərini daha tez qəbul etmələrinə və sosial mediada özlərinə aid olmayan başqa bir kimlik formalaşdırmasına səbəb olacaq.

* Valideynlərin uşağın həyatında qətiyyətli və ardıcıl davranışları uşağa güvən hissi verir. Ata uşağa mənfi sosial mediadan istifadə etməyə icazə verərsə, ananın qadağan etməsi nəticəsində uşaq balanssız və sağlam düşünməyən uşaq olaraq böyüyəcəkdir.

* Valideynləri laqeyd və passiv münasibət bəsləyən uşaqlar özlərini dəyərsiz görməyə meyllidirlər və diqqəti cəlb etmək üçün müxtəlif davranışlar göstərə bilərlər. Bu uşaqlar sosial mediada fərqlənmək üçün lazım olan hər vasitədən istifadə edəcəklər.

* Həddindən artıq tənqid olunduğu, əgər varsa bacı-qardaşları yanında alçaldıldığı, nə etsə də həmişə günahkar və uğursuz göründüyü bir ailə mühitində böyüyən uşaqlar da oxşar reaksiyalar göstərəcək və sosial mediadan həddindən artıq istifadə edəcəklər. Nəticədə neqativlərə məruz qalır və gələcəkdə necə şəxsiyyət olacaqlarını müəyyənləşdirirlər” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***



**Mətanət MƏMMƏDOVA**

# Yol böyüyün, su kiçiyin, demişlər...

***Amma bu, bir vaxtlar idi. O vaxtlar ki, ataların ”yol böyüyün, su kiçiyindir” tövsiyəsinə əməl olunurdu. Hər yerdə-harada qapı varsa, oraya özündən böyük insanın girdiyini, oradan özündən böyük insanın çıxdığını görən gənc dayanırdı və böyüyə yol verirdi. Olsun küçə, ictimai nəqliyyat və sair ağlınıza gələn hər yer... Yol böyüyün idi. Əziyyət çəkib 2-3 dəqiqədə gözləməli idin ki, böyük keçsin...***

Su isə kiçiyin idi. Yəni haradasa su içmək lazım gəldikdə, suyu ilk olaraq uşaq içməli, uşağa içirdilməli idi, axı onların dözümü biz böyüklərin dözümündən azdır.

Elə bu kimi dəyərlərimizə görə də zaman-zaman atalarımızın dilində bu deyim formalaşmışdı: yol böyüyün, su kiçiyindir.

Müasir dövrümüzdə qarşılaşdığımız və gördüyümüz mənzərələr fonunda bu məsələyə nəzər salmağın da yerində olduğunu düşünürəm. İndi artıq böyüyə yol vermək az-çox rayonlarda qalıb. Hansı ki, bəzən rayondan gələnlərin şəhərdə özlərini aparmağı bacarmadıqlarını iddia edənlər olur. Lakin təəssüf ki, elə adət-ənənələrimizdən, milli dəyərlərimizdən nə qalıbsa, rayonlarda qalıb. Elə bu gün haqqında danışdığımız böyüyə yol vermək kimi...

Təəssüf ki, böyüyə yol vermək əsasən ötən illərdə qalıb. İndi əksər gəncə yaşlılar yol verməli olurlar. Çünki onlar ictimai nəqliyyatda özlərini elə irəli verir ki, yaşlı insanlar yıxılmaqdan, zədə almaqdan qorxub onlara yol verməli olurlar.

Metronun giriş qapısından tutmuş qatarlaradək müşahidələrim əsasında deyə bilərəm ki, böyüklərə yol verən çox az gənc var. Başları söhbətə, telefona elə qarışıb ki, böyüklər yaddan çıxıb. Qulaqlardakı qulaqcıqlar ətraf aləmdən uzaqlaşdırıb belə gəncləri. Sanki dinlədikləri musiqini ritmi ilə hərəkət edirlər. Bu ritm isə özündən dəfələrlə böyüyü arxada qoyub irəliyə keçməklə nəticələnib.

Hələ böyüyə yer verməyi demirəm, çünki bu, ayrıca bir mövzudur.

Küçədə, əhalinin sıx olan yerlərində də müşahidə edən olsa, görər ki, gənclər dərsdən çıxanda yolu elə zəbt edirlər ki, sanki yol yalnız onlara məxsusdur. Buradan nəinki böyük olan, heç öz yaşıdları da keçə bilmir. Lakin yolda, ictimai nəqliyyatda və yerlərdə hərəkətin qayda-qanunu var. Kimsə yolu zəbt edən belə gənclərdən xahiş etməlidir ki, zəhmət olmasa, mənə yol verin? Ya da bir tərəfə çəkilin, keçim? Onlar özləri fikirləşməlidir ki, yolu zəbt etmək olmaz.

Beləliklə, hazırda əksər gənc belə bir düşüncə ilə yaşayır ki, hər yerdə mən. Bu isə ”yol böyüyün olmalıdır” kimi dəyərimizin keçmişdə qalması, günümüzdən uzaqlaşması ilə nəticələnir.

Lakin unutmağa haqqımız olmayan adətlərimizdən birincisi böyüyə yol verməkdir. Çünki bu, adətlərdən də əvvəl mənəvi zənginliyimiz, ailə dəyərlərimizə saygı ilə yanaşmağımız və tərbiyəmizin göstəricisidir.

Qoy gənclər unutmasın ki, bir gün də onlar bu gün yol vermədikləri böyüklərin yaşına gələcəklər. Yaşlandıqca insanın həssaslaşdığını, özündən yaşca kiçik olanlardan hörmət gözlədiyini nəzərə alsaq, ola bilməz ki, bu, yaşa dolduqca onları incitməsin. O zaman ki, ətrafdakı gənclərdən saygı umacaqlar, elə həmin an anlayacaqlar ki, biz gənclikdə hansı səhvləri etmişik. Lakin onda gec olacaq.

Elə bu səbəbdən də, əziz gənclər, gəlin, bir az yubanmalı olsaq da, böyüklərə yol verək. Çünki hər kəsin evində böyüyü var. Özündən böyük bir insana saygısız yanaşmaq öz böyüyünüzə saygısızlıq deyilmi?..

# Uşaqlar bizim gələcəyimizdir

Bildiyimiz kimi, ilk dəfə olaraq 1924-cü ildə Böyük Britaniyada uşaqların hüquqlarını təmin edən bəyannamə qəbul edilmişdir. Bu bəyannamədə deyilirdi ki, "bəşəriyyət məcburdur ki, uşaqları ən yaxşı şeylərlə təmin etsin". Bu bəyannamənin qəbul edilməsində Eqlantine Gebb mühüm rol oynamışdır. Birinci dünya müharibəsinin dəhşətlərinin şahidi olan Eqlantine Gebb müharibənin dəhşətlərindən sarsılaraq uşaqların xüsusi müdafiəyə ehtiyac duyduğlarını anlamışdı. O, bacısı Doroti Bakstonun köməyi ilə 1919-cu ildə uşaqlara yardım və kömək göstərmişdir. Eqlantine Gebb uşaqların müdafiəsini təmin etmək üçün Londonda "uşaqlara yardım fondu"nun əsasını qoydu.

1iyun 1950-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənmiş və elə həmin tədbirdə də 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı verilmişdir. Bundan sonra iyunun 1-i Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşdü. Dünyanın əksər ölkələrində olduğu kimi, bu bayram Azərbaycanda da qeyd edilir. Bu bayramla yanaşı BMT -nin Baş Assambleyası tərəfindən 20 noyabr tarixində "Ümumdünya Uşaqlar Günü"də qeyd olunur. Qeyd edək ki, "Ümumdünya Uşaqlar Günü"1954-cü ildə BMT -nin Baş Assambleyasının № 836 (IX) saylı qətnaməsində



*Ayaz Əlifov*
*Yeni Azərbaycan Partiyasının Nərimanov rayon ƏPT-nın sədr müavini*

öz əksini tapmış və 1956-cı ildən isə bütün dövlətlərdə uşaqların şərəfinə keçirilməsi tövsiyə olunan bayram kimi qeyd olunmuşdur. Həmçinin Birləşmiş Millətlər Təşkilatı 1959-cu ilin 20 noyabrında "Uşaq Hüquqları Bəyannaməsi"ni və 1989-cu ildə isə "Uşaq Hüquqları Konvensiyası"nı qəbul etmişdir.

Qeyd edək ki, ölkəmizdə uşaqların sağlam, firəvan böyüməsi, onların hüquqlarının yüksək səviyyədə qorunmasına xidmət edən dövlət siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Hər zaman sonsuz sevgi, minnətdarlıq və qürurla xatırladığımız müstəqil Azərbaycan dövlətinin memarı əbədiyaşar Heydər Əliyev daim uşaqlara böyük qayğı və diqqət göstərmiş, onların ən böyük himayədarı olmuşdur. Ümummilli liderin ölkəmizə rəhbərlik etdiyi dövrdə bütün sahələrdə olduğu kimi, uşaq hüquqlarının qorunması, uşaqların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı genişmiqyaslı işlər görülmüş, müvafiq qanunvericilik aktları qəbul edilmişdir. Uşaqların yaxşı təhsil və təlim-tərbiyə alması, Vətən və xalq üçün gərəkli övlad kimi yetişməsi ulu öndərin daim diqqətində olmuşdur. Ümummilli lider deyirdi ki, uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır.1994-cü ildə ölkəmiz BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına qoşulmuşdur. Bu Konvensiyaya qoşulan ölkəmiz uşaq hüquqlarına yüksək dəyər verdiyini, uşaqların ehtiyaclarının hərtərəfli təmin olunması istiqamətində addımlar atdığını bir daha təsdiqləmişdir.

Ümummilli lider Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında 1998-ci ildə Milli Məclisdə "Uşaq hüquqları haqqında", 1999-cu ildə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunlar qəbul edilmişdi. Ulu öndər öz çıxışlarında dəfələrlə vurğulayırdı ki, müstəqil dövlətimizdə uşaqların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetkinləşməsi olduqca mühüm əhəmiyyət kəsb edir. O, tez-tez uşaqlar üçün təşkil edilən tədbirlərdə, bayram şənliklərində iştirak edir, onlarla ünsiyyətdə olurdu. Uşaqlar da ulu öndərlə hər bir görüşdən sevinc və ilham alırdılar. Ümummilli lider Heydər Əliyevin bütün istiqamətlərdə, o cümlədən uşaqların hüquqlarının qorunması və qayğı ilə əhatə olunması sahəsində müəyyənləşdirdiyi dövlət siyasəti bu gün ölkə prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin 2008-ci il 22 dekabr tarixli sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi Azərbaycan dövlətinin uşaqlara sonsuz qayğısının bariz təzahürü sayılır. Hazırda ölkəmizdə uşaq problemlərinin həlli istiqamətində onlarla dövlət proqramı və böyük layihələr həyata keçirilir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinin həlli ilə bağlı vacib proqramlar reallaşdırılır.

Xüsusilə valideyn himayəsindən məhrum olan, dövlət müəssisələrində tərbiyə olunan uşaqların rifah halının yaxşılaşdırılması, hüquqlarının qorunması daim diqqətdə saxlanılır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli ordumuzun qəhrəmanlığı ilə torpaqlarımızın işğaldan azad edilməsi isə Azərbaycan uşaqlarının həyatında yeni bir mərhələ başladıb. Artıq uşaqlarımız məcburi köçkün deyil və ailələrilə birgə öz doğma ata-baba yurdlarına qayıdışa hazırlaşırlar. Qarabağda və Şərqi Zəngəzurda aparılan sürətli bərpa-quruculuq işləri azad edilmiş ərazilərimizdə tezliklə xoşbəxt uşaq gülüşlərinin eşidiləcəyinə əsas yaradır. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın şəhərinə qayıdışı başlanıb.

Qeyd edək ki, birinci mərhələdə 28 may 2023- cü il tarixində şəhərə 20 ailə, yəni 97 nəfər köçürülüb. Laçına ilk köç karvanı Bakı şəhərinin Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bütün məcburi köçkünlərin yaxın vaxtlarda mərhələli şəkildə öz yurdlarına qayıdışı bölgənin inkişafına müsbət təsir edəcək. Cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə və onların övladlarına göstərdikləri diqqət və qayğı isə hər kəs üçün örnək və nümunədir".

# Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələri növlərinin siyahısı genişləndirilir

**Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təminatının gücləndirilməsi sahəsində növbəti addım olaraq həmin şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələri növlərinin siyahısı daha da genişləndiriləcək. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən kollegiya iclasında bildirilib.**



Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin uğurlu sosial siyasətində əlilliyi olan şəxslərin sosial müdafiəsinin və reabilitasiya xidmətləri ilə təmin olunmasının mühüm yer tutduğunu vurğulayıb. Bu sahədə atılan addımlardan bəhs olunmaqla, həmçinin son beş ildə reabilitasiya sisteminin müasir tələblərə uyğun qurulduğu qeyd edilib. Görülən işlər nəticəsində reabilitasiya xidməti göstərilən əlilliyi olan şəxslərin illik sayının 7,3 dəfə artdığı diqqətə çatdırılıb. Həmin şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələri növlərinin siyahısına 2020-ci ildə nazirliyin təklifləri əsasında 23 reabilitasiya növünün əlavə edildiyi bildirilib. Qeyd olunub ki, hazırlanmış yeni təkliflərdə həmin siyahıdakı reabilitasiya vasitələri növlərinin sayının 57-dən 81-ə çatdırılması nəzərdə tutulur.

Əmək qanunvericiliyinin təkmilləşdirilməsi tədbirlərinin davam etdirildiyi, bu məqsədlə Əmək Məcəlləsinə yeni dəyişiklik layihələrinin hazırlandığı diqqətə çatdırılıb. Ümumdünya Əməyin Mühafizəsi Günü ilə əlaqədar işəgötürənlər və sosial tərəfdaşların nümayəndələri ilə birgə Bakı və müxtəlif bölgələrdə keçirilən maarifləndirmə tədbirlərindən bəhs olunub.

Ötən il 141, bu ilin ilk rübündə 35 uşağın övladlığa götürüldüyü, reinteqrasiya tədbirləri nəticəsində 2023-cü ildə 177, cari ilin 3 ayında 39 uşağın sosial xidmət müəssisələrindən öz bioloji ailələrinə qaytarıldığı bildirilib. Habelə sosial dəstək mexanizmlərindən istifadə olunmaqla və maarifləndirmə tədbirləri ilə bu ilin yanvar-mart aylarında 62 uşağın ailələrindən dövlət uşaq müəssisələrinə verilməsinin qarşısının alındığı qeyd olunub.

Hazırda 50-dən çox sosial ödəniş növünün təyinatının elektron sistemlər üzərindən proaktiv qaydada aparıldığı bildirilib. Uşaqlara görə erkən pensiya hüququ olan şəxslərə pensiya təyinatının da proaktivləşdirilməsinin nəzərdə tutulduğu, bununla bağlı qanuna dəyişiklik layihəsinin hazırlandığı diqqətə çatdırılıb. İki və daha artıq pensiya növünə hüququ olan şəxsə həmin pensiyalardan ən yüksək məbləğdə olanının proaktiv təyin edilməsi mexanizminin də hazırlanacağı vurğulanıb.

Son illərdə 1064 peşə və kvalifikasiya standartının hazırlanaraq təsdiqləndiyi və e-sosial.az portalındakı "Peşə və Kvalifikasiya Standartlarının Reyestri"nə yerləşdirildiyi, bu il üçün 300 yeni standartın da hazırlanmasının nəzərdə tutulduğu bildirilib. Nazirlik tərəfindən ictimai iaşə və qida, maliyyə, emal və kənd təsərrüfatı sahələri üzrə daha 54 standartın hazırlandığı qeyd edilib. Kollegiya tərəfindən həmin yeni standartlar müzakirə edilərək təsdiqlənib.

İclasda əmək siyasəti, övladlığagötürmə, sosial sığorta və pensiya, əlillik, reabilitasiya və sair sahələrdə görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub. Həmçinin autizmli gənclərin, onların ailə üzvlərinin məşğulluq imkanlarının artırılmasına dəstək məqsədi daşıyan pilot layihə təsdiq edilib.

*MÜNASİBƏT*

# "Qanunları pozan hər bir kəs qanun qarşısında cavab verməlidir"

""Əli Kərimlinin açıq deməliyəm ki, hazırda Əliyev rejimi təkcə xalqımızı yox, həm də dünya birliyini sınağa çəkir. Demokratik sistemlər öz dəyər və prinsiplərini qorumaq üçün zəruri qətiyyəti göstərə biləcəklərmi?" deməsi onun ölkəmizə düşmənçilik nümayiş etdirən, qələbəmizi həzm edə bilməyən və güclənməyimizi qəbul edə bilməyənlər-



üçün bir alətdir. Çünki, ölkəmizdə bütün haqlar təmin olunduğu halda bizə iradlarını bildirənlər öz ölkələrində belə bir normalara məhəl qoymur.

Azərbaycanda internet və mətbuat azadlığı təmin olunmuşdur. Belə ki, mətbuat üzərindən senzura götürülmüşdür. Amma bu o demək deyil ki, xaricdən idarə olunan media ölkədə insanları çaşbaş salan təxribat yönümlü fəaliyyətlə məşğul olsun. Bəli, ölkəmizdə bütün azadlıqlar təmin ilə eyni sırada olduğunun göstərir. Çünki, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında dövlətimiz müstəqil siyasət yürüdür. Hətta bir-biri ilə düşmən ölkələrlə balansı qoruyub saxlaya bilir". Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib.

Deputat sözlərinə belə davam edib: "O cümlədən özünün daxili işi olan ərazilərində suverenliyini bərpa edib. Həm də sivil dəyərlərə əslanan demokratik dövləti qura bilmişik. Uğurlarımızı qəbul edə bilməyənlər ölkədəki siyasi sabitliyi pozmaq, ölkəni gücsüzləşdirmək üçün ölkə daxilində müəyyən radikal qüvvələri mailiyyələşdirir və onların gücü ilə xalqı iqtidara qarşı qaldırmağa çalışır. Yəni, insan haqları, media azadlığı və demokratiya onların əlində bizim kimi dövlətləri təsir altında saxlamaq olunduğu kimi bütün fəaliyyətlər də qanunlar çərçivəsində həyata keçirilməlidir. Qanunları pozan hər bir kəs qanun qarşısında cavab verməlidir. Bəzi özünü azərbaycanlı adlandıranlar ölkəmizə qarşı hər hansı bir təzyiq məlumatı eşidəndə ermənilərdən çox sevinirlər. Yeni düşünürlər ki, bu yolla insanları yoldan çıxarda biləcəklər. Amma unudurlar ki, xalqımız ölkəmizin qazandığı qələbəsindən, ərazilərində suverenliyin təmin olunmasından, ölkədə təmin olunmuş təhlükəsizlik və sabitlikdən məmnundur. Ona görə də xalqımız heç kimə bu nailiyyətlərimizi əlimizdən almağa imkan verməyəcək və dövlət başçımızın yanında sıx birləşərək daxili və xarici düşmənlərimizə qarşı mübarizə aparır və bundan sonra da aparacaqdır".

***Ayşən Vəli***

# Açıq havada tüstü karnavalı: hamımız ”tobaccoman”ıq

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*





**Dünyanın bir çox ölkəsində qapalı yerlərdə siqaret çəkmək qadağandır. Azərbaycanda da bu qadağa qanunla təsdiqlənir. 2017-ci ildə Prezident İlham Əliyev ”Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” qanunu imzalayıb. Bu qanun Azərbaycan Respublikası əhalisinin sağlamlığının qorunması, sağlam həyat tərzinin təbliği, uşaqların və gənclərin sağlam böyüməsi və inkişafı, zərərli vərdişlərə aludəçiliyin profilaktikası, tütün məmulatlarının istifadəsinin və tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirlərinin azaldılması istiqamətində fəaliyyətin hüquqi əsaslarını müəyyən edir.**

Elmi araşdırmalar göstərib ki, siqaret tüstüsünün tərkibindəki zərərli maddələr uzun müddət havada və siqaret çəkilən mühitin səthlərində qalır və buna görə də heç vaxt qapalı mühitlərdə siqaret çəkilməməlidir. Tütün tüstüsünə birbaşa məruz qalmasanız belə, daha əvvəl ətraf mühitdə siqaret çəkilibsə o mühitə girəndə siqaret tüstüsünün passiv təsirinə məruz qala bilərsiniz. Tütün tüstüsünün təsiri hər il dünyada bir çox insanın ölümünə səbəb olur.

## Siqaretdən əşyalara, əşyalardan bizə

Hər il dünyada 700 milyon uşaq tütün tüstüsünə məruz qalır, 600 min insan isə siqaret çəkməsə belə tütün tüstüsünün təsirinə məruz qaldığı üçün ölür. Başqalarının istehlak etdiyi tütün tüstüsünə məruz qalma nəticəsində ölənlər, yol qəzaları və narkotik istifadəsi nəticəsində baş verən ölümlərdən qat-qat çoxdur. Tütün tüstüsünə məruz qalma xərçəng, amfizem və infarkt kimi bir çox ölümcül xəstəliklərə səbəb olur. Uşaqlar tütün tüstüsünün zərərli təsirlərinə daha həssasdırlar. Tütün tüstüsünün zərərləri daha uzun müddət məruz qaldıqda daha da artır.

Tütün tüstüsündən əşyalara, geyimə hopan zərərli maddələr həftələr, hətta aylar sonra təmizlənmir. Pəncərələrin açıq olması və havalandırma sistemlərinin işləməsi bu zərəri azaltmır. Passiv təsirdən qorumağın yeganə yolu insanların qapalı məkanlarda siqaret tüstüsünə passiv məruz qalmasının qarşısını almaqdır.

Araşdırmalar, aktiv siqaret istifadəçilərinin çəkdiyi siqaretin tüstüsünə məruz qalan passiv istifadəçilərin 30 dəqiqə ərzində fiziki problemlər yaşadığını aşkarlayıb. Bundan əlavə, ÜST mütəxəssisləri qeyd edir ki, passiv istifadə zamanı insan orqanizmində baş qaldıran xərçəngdən ölənlərin sayı nüvə, radiasiya, kimyəvi dərman, təhlükəli maddələrlə tənəffüs nəticəsində yaranan xərçəng xəstəliyindən vəfat edənlərin sayından daha çoxdur.

## Qanun deyir: ”Olmaz!”

Azərbaycan Respublikasında tütündən istifadənin məhdudlaşdırılması və tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirinin azaldılması məqsədi ilə təhsil və tərbiyə müəssisələrində, habelə onların ərazilərində, səhiyyə və tibbi-reabilitasiya müəssisələrində, habelə onların ərazilərində, idman yarışları və başqa kütləvi tədbirlərin keçirildiyi binalarda və obyektlərdə, habelə onların ərazilərində, restoranlar, kafelər, barlar daxil olmaqla, ictimai-iaşə obyektlərində ticarət obyektlərində, məişət obyektlərində, sosial xidmət müəssisələrində, yerləşdirmə vasitələrində tütün çəkilməsi qadağandır.

Qanunlarımız həmçinin teatr və kinoteatrlarda, sirk binalarında, sərgi və nümayiş salonlarında, oxu zallarında, kitabxanalarda, muzeylərdə, habelə digər mədəniyyət obyektlərində, uşaq meydançalarında, yerüstü qapalı və yeraltı piyada keçidlərində, müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobuslarda, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitələrində və taksi minik avtomobillərində, metropoliten stansiyalarının vestibüllərində, keçidlərində, platformalarında və vaqonlarda, hava nəqliyyatı vasitələrində, dəmiryolu qatarlarında, su nəqliyyatı vasitələrində siqaret çəkməyi, başqalaraını tüstüsünə məruz qoymağı qadağan edir.

Bundan əlavə hava və dəniz, həmçinin çay limanlarının inzibati binalarında, dəmir yolu vağzallarında, avtovağzallarda, avtostansiyalarda və avtobusların dayanacaq məntəqələrində, liftlərdə və çoxmənzilli yaşayış binalarının ümumi istifadədə olan yerlərində, taksafonlarda, yanacaqdoldurma məntəqələrində, o cümlədən tezalışan maddələrin saxlandığı bina və müəssisələrdə, habelə bu maddələrin daşındığı nəqliyyat vasitələrində, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq digər müəssisə, idarə və təşkilatlarda, iş yerlərində siqaret çəkmək qadağandır.



## Harada tüstülətməli?

Hələ 2018-ci ildə Nazirlər Kabineti ”Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” qanununun 10.3-cü və 10.4-cü maddələrinə uyğun olaraq ”Tütün çəkmək üçün xüsusi ayrılmış yerlərə dair tələbləri” təsdiq edib. Tütün çəkmək üçün xüsusi ayrılmış qapalı yerlər yalnız tütün çəkənlər üçün nəzərdə tutulub, bütün növ qəlyanlar və elektron siqaretlər də bura daxildir. Bu qapalı yerlər bina daxilində insanların ümumi gediş-gəliş yerlərindən, kütləvi toplanma, istirahət və gözləmə sahələrindən kənarda yerləşdirilməlidir;, bütün tütün çəkilməyən yerlərdən tam təcrid edilməli, girişi və çıxışı bir qapıdan ibarət olmalıdır.

Xüsusi qapalı yerlərin tikintisində və quraşdırılmasında istifadə olunan materiallar yanğınadavamlı olmalı, özü açılan və bağlanan avtomatik qapılarla təchiz olunmalıdır. Bu yerlərin girişində ”Tütün çəkmək üçün xüsusi ayrılmış yer” və ”Tütün çəkmək səhhətiniz üçün zərərlidir” və ”18 yaşadək şəxslərin girişi qadağandır” yazılarının, yaxud işarələrinin olması təmin edilməlidir, külqabılarla təmin edilməlidir, havalandırma sistemi olmalıdır, lakin havalandırma sistemi bütün binanın sistemi ilə eyni olmamalıdır.

## Açıq məkanlarda çəkin, amma....



Tütün çəkmək üçün xüsusi ayrılmış açıq yerlərə dair tələblər də var. Tütün çəkmək üçün xüsusi ayrılmış açıq yerlər yalnız tütün çəkənlər üçün nəzərdə tutulur, həmçinin elektron siqaretlər və qəlyanlar da bura daxil edilir. Bu cür xüsusi açıq yerlər binaların giriş və çıxışlarından, ümumi gediş-gəliş yerlərindən kənarda yerləşdirilməlidir. Xüsusi açıq yerlərdə ”tütün çəkmək üçün xüsusi ayrılmış yer” yazısının olması təmin edilməlidir. Xüsusi açıq yerlər ərazisində siqaret kötükləri və ya onun hər-hansı bir hissəsi, eləcə də digər tütün məmulatlarının tullantıları üçün metaldan hazırlanmış xüsusi külqabılar yerləşdirilməlidir. Siqaret kötüklərini və ya onun hər-hansı bir hissəsini, eləcə də digər tütün məmulatlarının tullantılarını nəzərdə tutulmuş yerdən kənara atmaq qadağandır. Xüsusi açıq yerlərin sanitariya-gigiyena normalarına cavab verməsi və mütəmadi təmizlik işlərinin aparılması təmin edilməlidir.

Göründüyü kimi, açıq havada siqaret çəkmək üçün xüsusi ayrılan ərazidə dayanmaq mütləqdir. Səkidə gedərkən, parkda dincələrkən, yeraltı və yerüstü keçiddə hərəkətdə olarkən siqaret çəkmək başqalarının sağlamlığına zərər vermək deməkdir və qanun bunu siqaret çəkənlərə qadağan edir. Xüsusilə COP29 ərəfəsində bu cür etiket və davranış qaydalarına əməl etmək hər bir vətəndaşın borcudur. Ölkəmizə gələn turistlər yerli əhalinin davranışına adekvat davranacaq, necə ki biz bunun acı təcrübələrini həm Avropa Oyunları zamanı, həm Evrovision, həm də Formula yarışları zamanı yaşadıq. Bakıda və ətraf rayonların istirahət guşələrində təmizliyə ziayət edən və etməyən çox sayda turist gördük. Siqaret üçün ayrılmış xüsusi açıq məkan axtaran turistlər də oldu, təbii ehtiyacını üzmə hovuzuna edən turist də.

Dünyanın ən çox siqaret çəkən ölkələrinin ilk sırasında Sakit okean adası olan Naurudir. 12500 əhalisi olan ölkəni Myanma (44,1%) və Sakit okeanın digər adası Kiribati (40,60%) ikinci və üçüncü sıradadır. Afrika ölkəsi Qana siyahının sonundadır. 33 milyon əhalisi olan ölkədə siqaret çəkmə nisbəti 3,5 faizdir. Qana 50 ildən artıqdır aktiv tütün sənayesinə malik olsa da, bu Qərbi Afrika ölkəsi ciddi reklam qadağaları səbəbindən ən aşağı siqaret çəkmə nisbətlərinə malikdir.

İnkişaf etmiş ölkələrdə siqaret çəkmə nisbətləri İngiltərədə 15,4 faiz, ABŞ-da 23 faiz, Avstraliyada isə 13,6 faiz təşkil edib. Britaniyada 2000-ci ildə yetkin əhalinin 37,9 faizi siqaret çəkirdi, lakin son 20 ildə bu nisbət iki dəfə azalıb. Eynilə, ABŞ-da dərəcələr eyni dövrdə 33,8 faizdən aşağı düşüb. Mütəxəssislərin fikrincə, bu nəticəni əldə etmək üçün ictimai yerlərdə siqaret çəkməyi dayandırmaq üçün qanunlar qədər ictimai davranış qaydalarının da təsiri olur.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
2 may
2024-cü il

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Azərbaycanda ipoteka ilə bağlı dəyişikliklər təsdiqlənib



## *YENİLİKLƏR NƏDƏN İBARƏTDİR?*

**Prezident İlham Əliyev "İpoteka haqqında" qanuna və Mülki Məcəlləyə edilən dəyişiklikləri təsdiq edib. SİA xəbər verir ki, qanunda ipotekaya xitam verilən hallar genişlənib. Belə ki, Azərbaycanda ipoteka saxlayan tələbdən və ya ipotekadan imtina etdikdə ipotekaya xitam veriləcək. Qeyd edək ki, hazırda ipotekaya aşağıdakı hallarda xitam verilir:**

- ipoteka saxlayan və ipoteka qoyan bu barədə razılığa gəldikdə;
- əsas öhdəliyə xitam verildikdə;
- tutmanın yönəldilməsi nəticəsində ipoteka predmeti satıldıqda;
- ipoteka predmeti məhv olduqda;
- bu Qanunla nəzərdə tutulmuş digər hallarda.

Bu Qanunda nəzərdə tutulmuş hallarda ipoteka saxlayan ipotekaya xitam verildiyi gündən 5təqvim günü ərzində bu barədə ipotekanın qeydiyyatını aparan dövlət orqanına ərizə ilə müraciət etməlidir. Ərizənin verilməməsi nəticəsində ipoteka qoyana vurulan zərərə görə ipoteka saxlayan məsuliyyət daşıyır.

Həmçinin Mülki Məcəlləyə edilən dəyişikliyə əsasən, Azərbaycanda zaminlik müqaviləsi ilə təmin edilmiş öhdəlik üzrə zamin subsidiar məsuliyyəti nəzərdə tutulduğu halda, zaminin məsuliyyəti borclunun öldüyü gündən mirasın qəbul edildiyi günədək müddətdə dayandırılacaq. Məcəlləyə əsasən, zaminlik müqaviləsi üzrə zamin başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür. Zaminlik müqaviləsi gələcəkdə yaranacaq öhdəliyin təmin edilməsi üçün də bağlana bilər. Zaminlik müqaviləsi yazılı formada bağlanacaq. Yazılı formaya riayət edilməməsi zaminlik müqaviləsinin etibarsızlığına səbəb olur.

# "Titanik"in aktyoru vəfat etdi



**Dünyaca məşhur şotlandiyalı aktyor və yazıçı Brayan Makkardi vəfat edib. SİA xəbər verir ki, aktyor 59 yaşında evində qəfil dünyasını dəyişib. Onun ölüm səbəbi açıqlanmayıb.**

Qeyd edək ki, Makkardi karyerasına 1980-ci illərin sonlarında başlayıb. O, "Damaged", "Time", "Line of duty", "Titanik", "The Ghost and the Darkness" kimi bir çox məşhur ekran işində rol alıb.



# "Real"ın yeni ağsaqqalı!

**"Real"ın futbolçusu Luka Modriç Madrid klubunun tarixinə düşüb. QOL.az xəbər verir ki, xorvatiyalı yarımmüdafiəçi "Real"ın Çempionlar Liqasında meydana çıxan ən yaşlı futbolçusu olub.**

Modriçin rekordu yarımfinalın "Bavariya" ilə ötən gecə keçirilən ilk oyununda ( 2:2), 38 yaş 234 günlüyündə qeydə alınıb. Bununla da Modriç "Real"ın əfsanəsi Ferents Puşkaşın rekordunu yeniləyib. Puşkaş 1965-ci ildə UEFA Çempionlar Kubokunda Şotlandiyanın "Kilmarnock" klubu ilə oyuna çıxanda 38 yaş 229 günlük olub.

# Gələn ay ardıcıl 5 gün iş olmayacaq



**Bu il Azərbaycan xalqının Milli Qurtuluş Günü və Qurban bayramı ilə əlaqədar ardıcıl 5 gün iş olmayacaq. SİA-nın xəbərinə görə, 15 iyun Azərbaycan xalqının Milli Qurtuluş Günüdür. Nazirlər Kabinetinin "2024-cü il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" 9 dekabr 2023-cü il tarixli qərarına əsasən, bu il iyunun 16, 17-si Qurban bayramı günləri müəyyən edilib.**

Əmək Məcəlləsinə əsasən, həftələrarası istirahət günləri və iş günü hesab olunmayan bayram günləri üst-üstə düşərsə, həmin istirahət günü bilavasitə bayram günündən sonrakı iş gününə keçirilir. Bu il 15 iyun şənbə, 16 iyun bazar gününə təsadüf etdiyi üçün 18 və 19 iyun qeyri-iş günləri olacaq. Beləliklə, ardıcıl olaraq 15, 16, 17, 18 və 19 iyun tarixlərində iş olmayacaq.

## ELAN

Azərbaycan Respublikası Müdafiə Nazirliyi Veteran adlarının və müvafiq vəsiqələrinin verilməsi komissiyası tərəfindən Quliyev Ağasim Vidadi oğlunun adına verilmiş M/V N108829 saylı vəsiqə itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3200